Xalqın qəzeti!

# Xalq qəzeti

№ 172 (30866) 17 avqust 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# ABŞ-la tərəfdaşlığın strateji üfüqləri

## *“Odlar yurdu”nun “Dünya nəhəngi” ilə əməkdaşlığı regional və qlobal önəm daşıyır*



**Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 8-də Vaşinqtonda media nümayəndələrinə verdiyi müsahibə ölkəmizin qarşıdakı illərdə enerji siyasəti, rəqəmsal inkişaf və ABŞ-la tərəfdaşlığının strateji perspektivləri baxımından xüsusi önəm daşıyır. Dövlət başçısının səsləndirdiyi fikirlər yalnız cari reallıqları deyil, həm də gələcəkdə respublikamızı gözləyən yeni iqtisadi, texnoloji və geosiyasi imkanların aydın mənzərəsini göstərir.**

**Ölkə rəhbərinin müsahibəsi bir daha təsdiqlədi ki, Azərbaycan qlobal enerji siyasətində əsas oyunçulardan biri olaraq mövqelərini daha da möhkəmləndirmək, eyni zamanda, yeni dövrün çağırışlarına, xüsusilə də “yaşıl” enerjiyə və rəqəmsal transformasiyaya uyğun cavab vermək niyyətindədir. ABŞ Prezidenti Donald Trampla imzalanan memorandumun mühüm istiqamətlərindən biri olan enerji əməkdaşlığına xüsusi diqqət ayrılması da məhz bu baxımdan diqqət çəkir. Belə bir əməkdaşlıq təkcə ənənəvi enerji resursları – neft və qaz sahəsində deyil, həm də bərpa olunan enerji mənbələrinin inkişafında yeni imkanlar açır.**

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında bu yaxınlarda əldə edilmiş razılaşma münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Sülhü nifaqdan üstün tutmaq cəsarəti təqdirəlayiqdir və bu, Sizin regionun firavanlığına və sabitliyinə olan sadiqliyinizi yüksək səviyyədə nümayiş etdirir. Bu əhəmiyyətli hadisə təkcə münasibətlərin normallaşması istiqamətində mühüm addım deyil, həm də dünyada sülhə zəmin yaradan daha sabit və harmoniyanın mövcud olduğu region vəd edir.

Çətinliklərə baxmayaraq, dialoqa və diplomatiyaya sadiqliyiniz qətiyyətli liderliyinizin göstəricisidir. İmzalanmış bəyannamə hər iki ölkənin vətəndaşlarına ümid verməklə yanaşı, qlobal miqyasda münaqişələrin həlli üçün müsbət nümunədir. Bu sənəd Azərbaycan və Ermənistan vətəndaşlarının rifahına təsir edən mühüm məsələlərin həllində səmərəli əməkdaşlığa gətirib çıxara bilər.

Hesab edirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı ilə tərəfdaşlığın gücləndirilməsi Azərbaycanın qlobal səhiyyədə liderlik rolunu artıra bilər. Yoluxucu və qeyri-infeksion xəstəliklərin müalicəsi, ana və uşaq sağlamlığının yaxşılaşdırılması kimi ümumi sağlamlıq məsələlərinə yönələn birgə səylər təkcə Azərbaycan üçün deyil, həm də daha geniş beynəlxalq ictimaiyyət üçün müsbət nəticələr verə bilər.

Bu əlamətdar nailiyyət münasibətilə Sizi bir daha təbrik edirəm. Sülh və sabitliyə doğru gedən yolda Sizə davamlı uğurlar arzulayıram. Qlobal sağlamlığın qorunması istiqamətində Sizinlə yaxından işləməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Tedros Adhanom QEBREYESUS,***
***Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru***

## Dördüncü Sənaye İnqilabı: Azərbaycanın rəqəmsal gələcəyi



səhifə ⇨ 6

## Çinlə Orta Dəhliz əməkdaşlığının hədəfləri



səhifə ⇨ 6

## Pol Qoblun nəzərə almadığı reallıq

*Üstündən bir qərinə keçsə də, Cənubi Qafqaz uğrunda geosiyasi mübarizə səngiməyib*



**Qafqazın “Qordiyev düyünü”nə çevrilmiş Qarabağ münaqişəsini hərbi qarşıdurmaya getmədən, ərazilərin dəyiş-düyüşü yolu ilə çözülməsi. 33 il bundan əvvəl ABŞ Dövlət Departamentinin sabiq əməkdaşı, məşhur politoloq Pol Qobluн irəli sürdüyü planın əsas mahiyyəti bundan ibarət idi. Bəli, bu plan keçmiş Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi məqsədilə ortaya atılmışdı.**

ardı səhifə ⇨ 4

## Rusiya və Cənubi Qafqaz: Kremlə başqa tələ lazımdırmı?

*Moskvada dərk etməlidirlər ki, hərbə-zorbalıq dövrü geridə qalıb*

**Azərbaycan, Ermənistan və ABŞ liderlərinin Vaşinqtonda bir araya gəlmələri və imzaladıqları sənədlər Moskvada soyuq duş effekti yaratmaqla yanaşı, Ermənistandakı revanşist-şovinist kəsimi də möhkəm qəzəbləndirib. Rusiyada Kremlin dirijor çubuğu ilə hərəkətə gələnlər müxtəlif məqamları qabardıb Bakıda səhv axtarmağa girişirlərsə, ölkəmizin, az qala, işğalına ciddi əsasın yarandığını vurğulayırlarsa, erməni revanşistlərin hədəfi baş nazir Nikol Paşinyan iqtidarıdır. Daha doğrusu, onlar ənənəvi anti-Paşinyan tezislərini daha da gücləndirirlər. Revanşistlərin də məhz Kremlin direktivlərinə uyğun hərəkət etdikləri məlumdur.**



Əslində, erməni müxaliflər hər zaman Kremlə yaxın çevrələr tərəfindən idarə olunublar və mövcud trayektoriyada təəccüblü heç nə yoxdur. Nisbətən fərqli olan həmin müxaliflərin hazırda bildirdikləri fikirlər, irəli sürdükləri yanaşmalardır. Məsələn, Erməni Milli Konqresinin sədr müavini Levon Zurabyanın dediklərini götürək. Azərbaycanın, guya, sülhdən yayınacağını, habelə “erməni hərbi əsirləri saxladığını”, “Artsaxın mədəni irsini məhvə məruz qoyduğunu”, Qarabağ ermənilərinin geri qayıdış hüququnu tanımadığını deyən Zurabyan çox sərsəmlədikdən sonra nəticəyə gəlir ki, rəsmi Bakı Ermənistanın işğalına cəhd göstərsə, ikincini qorxunc aqibətdən ABŞ yox, məhz Rusiya qurtaracaq.

*(ardı 3-cü səhifədə)*

## Qərb, Rusiya və Ukrayna: Sülhə yol tapılacaqmı?



səhifə ⇨ 5

## Qarabağ cəlladlarının qara günləri



səhifə ⇨ 4

## “Səhnə əkizi” – kiçik qardaş



səhifə ⇨ 7

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**
Sadıqov Rəşad Heydər oğlu – general-leytenant

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**
Xəlilov Abbas Sultan oğlu – general-leytenant
Qocayev Bağır İbrahim oğlu – polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Bağırov Ramin Sabir oğlu – general-mayor
Qiyasov Abbas Hüseyn oğlu – kontr-admiral

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Məmmədov Araz Məmməd oğlu – general-leytenant

**"Vətən uğrunda" medalı ilə**
Zeynalov Zaur Ağaqardaş oğlu – general-mayor
Cəlilov Namiq Mahmud oğlu – polkovnik
İbrahimov Orxan Kamran oğlu – polkovnik
Qəmxarov Müşviq Əlican oğlu – polkovnik
Salmanov Tərlan Süleyman oğlu – polkovnik
Hacıyev Baxtiyar Vahid oğlu – polkovnik-leytenant
Heydərov Fuad Fərman oğlu – polkovnik-leytenant
Məmmədov Allahverdi Məhəmməd oğlu – polkovnik-leytenant
Məmmədov Əsgər Qadir oğlu – polkovnik-leytenant
Təhməzov Zaur Nizaməddin oğlu – polkovnik-leytenant
Sadıqova Nuranə Qədir qızı – kapitan

**"İgidliyə görə" medalı ilə**
Pirizadə Müzəffər Ələsgər oğlu – general-leytenant
Məlikov Vüqar Səfər oğlu – polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**
Ağalarov Kərəm Məzahir oğlu – ədliyyə polkovniki
Əsgərov Akif Allabağış oğlu – 1-ci dərəcəli kapitan
Məmmədov Azər Yaşar oğlu – polkovnik
Abbasov Ceyhun Sabir oğlu – polkovnik-leytenant
Əliyev Xəzər İsa oğlu – polkovnik-leytenant
Həsənov Rüfət Hüseynqulu oğlu – polkovnik-leytenant
Xəlilov Seymur Natiq oğlu – polkovnik-leytenant
Qocayev Zaman Hamlet oğlu – polkovnik-leytenant
Rüstəmov Rəşad Vaqif oğlu – polkovnik-leytenant
Salmanov Nihad Hüseynəli oğlu – polkovnik-leytenant
Yusifov Nazim Məhərrəm oğlu – polkovnik-leytenant
Abbasov Xalid Xeybər oğlu – mayor
Abbaszadə Təbriz Habil oğlu – 3-cü dərəcəli kapitan
Abdullayev Bəhruz Yusif oğlu – mayor
Əliyev Əsəd İmanverdi oğlu – mayor
Hacıyev Elçin Həsən oğlu – mayor
Həsənov Seymur Sabit oğlu – mayor
Qardaşova Tahirə Pərviz qızı – mayor
Qasımov Kamran Telman oğlu – mayor
Quliyev Ramin Yaşar oğlu – mayor
Qurbanlı Süleyman Xalid oğlu – mayor
Mirzəyev Kamil Kazım oğlu – mayor
Zamanov Arif Allahverdi oğlu – mayor
Zəkiyev Əli Müstəcəb oğlu – mayor
Cahangirov Elşən Qiyas oğlu – kapitan
Cəfərli Xətai Aydın oğlu – kapitan-leytenant
Əliyev Amil Famil oğlu – kapitan
Əliyev Elmin Yaşar oğlu – kapitan
Əliyev Sərxan Qabil oğlu – kapitan
Əskərli Ravid Allahyar oğlu – kapitan
Qaffarov Rəhman Elman oğlu – kapitan
Mehdizadə Xəyyam Niyazi oğlu – kapitan
Məmmədov Qiyas Nəcəf oğlu – kapitan
Məmmədov Mahir Nurəddin oğlu – kapitan
Nəhmətov Nahid Faiq oğlu – kapitan
Rəcov Cəfər Əliheydər oğlu – kapitan
Sadıqov Turqay Natiq oğlu – kapitan
Şahbazov Səadət Fətəli oğlu – kapitan
Əzizbəyli Uğur Qılman oğlu – baş leytenant
Həmidov Fuad Odlar oğlu – baş leytenant
Kərimov Taryel Abbasqulu oğlu – baş leytenant
Aslanov İlkin İlham oğlu – ehtiyatda olan leytenant
Əhmədli İmran Rəfail oğlu – baş gizir
Həsənova Təranə Hüseyn qızı – baş gizir
İsmayılova Zeynəb Paşa qızı – baş gizir
Mahmudlu Haldun Şahin oğlu – baş gizir
Rüstəmova Fəridə Nüsrət qızı – baş gizir
Şirinov Əbdüləli Zakir oğlu – baş miçman
Bağırov Əlislam Surxay oğlu – gizir
Həsənov Vüqar Fazil oğlu – gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 avqust 2025-ci il**

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**
general-mayor Babək Vahid oğlu Qurbanova

**"general-mayor" ali hərbi rütbəsi**
polkovnik Ceyhun Həsən oğlu Nəbiyevə
polkovnik Azər Əliyusif oğlu Şirinova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 avqust 2025-ci il**

# Ceyhun Bayramovun Andrey Sibiqa ilə telefon dialoqu



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Ukraynanın xarici işlər naziri Andrey Sibiqa arasında avqustun 16-da telefon danışığı aparılıb.**

Bu barədə Azərbaycan XİN məlumat yayıb.

Bildirilib ki, Ukraynanın xarici işlər naziri Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı Azərbaycan-ABŞ arasında əldə edilmiş razılıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Telefon danışığı zamanı Azərbaycan və Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin aktual məsələləri, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq müzakirə olunub. Tərəflər Azərbaycan ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının işinin əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər.

Ukrayna xarici işlər naziri öz növbəsində Azərbaycan tərəfinin Ukraynaya göstərilən humanitar yardımlar, o cümlədən münaqişədən zərər çəkmiş ərazilərdə bərpa və yenidənqurma sahələrində dəstəyinə görə təşəkkür edib.

Nazir Andrey Sibiqa, həmçinin Rusiya-Ukrayna münaqişəsi ətrafında aparılan danışıq prosesi barədə məlumat verib.

***XQ***

# Göygöldə IV Milli Yaylaq Festivalı




**Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği, yaylaq və elat mədəniyyətinin yaşadılması və beynəlxalq miqyasda tanıdılması məqsədilə Göygöl rayonunda keçirilən IV Milli Yaylaq Festivalının rəsmi açılış mərasimi olub.**

Dünya Etnoidman Konfederasiyasının prezidenti Bilal Ərdoğan çıxışında Milli Yaylaq Festivalının ilk dəfə 2019-cu ildə Gədəbəy rayonunda təşkil edildiyini xatırladıb: "Burada olmaq böyük xoşbəxtlikdir. Yaylaq festivalı sayəsində iki qardaş ölkə - Azərbaycan və Türkiyə mədəniyyətinin də ortaq olmasını bir daha görürük. Müsəlman ölkələri daim birgə olmalıdır. Qarabağ Zəfəri iki ölkənin bir daha güclü dostluq münasibətində olduğunu sübut etdi".

Gənclər və idman naziri Fərid Qayıbov bu cür festivalın keçirilməsinin Azərbaycan üçün böyük uğur olduğunu bildirib: "Artıq dördüncü ildir Milli Yaylaq Festivalı təşkil olunur. İnsanlarda festivala olan maraq yüksək səviyyədədir. Əsas məqsədimiz adət-ənənələrimizi yaşatmaq və gənclərə bunu sevdirməkdir. Əlbəttə ki, bu cür tədbirlər dövlətin qayğısı olmadan baş tuta bilməz. Bizə dəstək olan Dünya Etnoidman Konfederasiyasının prezidenti Bilal Ərdoğana da minnətdarıq".

"Cavad xan" Tarix və Mədəniyyət Fondunun prezidenti Müzadil Həsənov Göygöl rayonunda növbəti dəfə bu tədbirin təşkil edilməsinin sevindirici olduğunu vurğulayıb. O, Milli Yaylaq Festivalına olan marağı yüksək qiymətləndirib.

Festival bədii hissə ilə davam edib. Qeyd edək ki, 4-cü Milli Yaylaq Festivalı "Cavad xan" Tarix və Mədəniyyət Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası, Göygöl Qarabağ Universiteti Enactus Azərbaycan Milli Yarışının qalibi olub

***XQ***

# XİN-nin Pakistanda daşqınlarla bağlı paylaşımı



**Azərbaycan Xarici İşlər Nazirliyi Pakistanda qeydə alınan daşqınlarla bağlı paylaşım edib.**

Bu barədə XİN-in "X" hesabında edilən paylaşımda deyilir:

"Pakistanın şimal hissəsində daşqınların törətdiyi faciəvi insan tələfatı və dağıntılar bizi dərindən kədərləndirir. Düşüncələrimiz və dualarımız qurbanlar və onların ailələri ilədir. Azərbaycan bu çətin vaxtda qardaş Pakistan xalqı və hökuməti ilə həmrəydir".

Qeyd edək ki, Pakistanda güclü yağışların səbəb olduğu daşqın və torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 321 nəfərə çatıb.

# Qarabağ Universitetinin "Enactus" komandası qalib olub

**Avqustun 15-də Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və "Enactus Azərbaycan"ın birgə tərəfdaşlığı ilə keçirilən 2025-ci il Enactus Azərbaycan Milli Yarışı uğurla başa çatıb. Maraqlı və rəqabətli mübarizə şəraitində keçən yarışın qalibi Qarabağ Universitetinin "Enactus" komandası olub.**




Qarabağ Universitetindən XQ-yə bildirilib ki, respublika üzrə 24 universitet komandasının qatıldığı yarışın yarımfinal mərhələsinə 12, final mərhələsinə isə 6 komanda yüksəlib. Finalda Qarabağ Universiteti, Bakı Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan Dövlət İqtisad Universitetinin komandaları layihələrini təqdim edib və münsiflərin suallarını cavablandırıblar.

"Enactus Azərbaycan"ın İdarə Heyəti üzvlərindən ibarət münsiflər heyətinin qərarına əsasən, Qarabağ Universitetinin "Enactus" komandası fərqlənərək birinci yerə layiq görülüb. Qələbə sayəsində Qarabağ Universitetinin "Enactus" komandası 2025-ci ilin 25-28 sentyabr tarixlərində Tailandda keçiriləcək Enactus Dünya Kubokunda Azərbaycanı təmsil etmək hüququ qazanıb. Dünya Kubokunda iştirak Gənclər və İdman Nazirliyinin dəstəyi ilə baş tutacaq.

Sonda qalib komandalar mükafatlandırılıb.

***XQ***

# İcma fəaliyyətini davam etdirəcək

**"Möhtərəm cənab Prezidentin Ermənistanın baş naziri ilə Vaşinqtonda imzaladığı Birgə bəyannamə dövlətlərarası münasibətləri tənzimləyən bir sənəddir. İcmanın fəaliyyəti isə beynəlxalq konvensiyalarda təsbit olunmuş insan hüquqlarının, qayıdış hüququnun təmin edilməsinə yönəlmiş ictimai fəaliyyətdir. Bu mənada, İcmanın fəaliyyətinin dövlətlərarası münasibətlərlə, sülh sazişi ilə birbaşa əlaqəsi yoxdur".**

Bunu jurnalistlərə açıqlamasında Qərbi Azərbaycan İcmasının sədri, deputat Əziz Ələkbərli "Bu il avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan-Ermənistan normallaşma prosesini irəli aparan Birgə bəyannamə imzalayıblar. İki ölkə arasında sülh sazişi paraflanıb. Bu günlərdə bəzi internet resurslarında belə bir xəbər yayılıb ki, guya bundan sonra Qərbi Azərbaycan İcması öz fəaliyyətini davam etdirməyəcək. Bununla bağlı nə deyə bilərsiniz" sualına cavabında deyib.

"Bizim fəaliyyətimiz dinc yolla öz dədə-baba yurdlarımıza qayıtmaqdan ibarətdir. İcma heç vaxt Ermənistanın suverenliyinə, ərazi bütövlüyünə qarşı çıxmayıb. Cənab Prezidentin vurğuladığı kimi, biz Qərbi Azərbaycana tanklarla yox, maşınlarla qayıdacağıq.

Qərbi Azərbaycan İcması Azərbaycan-Ermənistan normallaşma prosesini alqışlayır və bu istiqamətdə cənab Prezidentin səylərini dəstəkləyir. Ümid edirik ki, sülh gündəliyinin irəliləməsi biz qərbi azərbaycanlıların dinc yolla öz yurdlarımıza dönməsinə şərait yaradacaq. Qərbi Azərbaycan İcması bu sahədə fəaliyyətini bundan sonra da davam etdirəcək", - deyə İcma rəhbəri vurğulayıb.

***XQ***

# ABŞ-la tərəfdaşlığın strateji üfüqləri

(əvvəli 1-ci səhifədə)



Azərbaycan artıq uzun illərdir ki, dünya enerji bazarında sabit və etibarlı tərəfdaş kimi tanınır. "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla həyata keçirilməsi ölkəmizin Avropanın enerji təhlükəsizliyində strateji rolunu artırır. Lakin indi gündəlikdə daha mühüm bir məsələ – enerji keçidi dayanır. Belə bir məsələnin sürətlə gerçəkləşdirilməsi – bərpaolunan enerji sahəsinin sürətlə inkişaf etdirilməsi Azərbaycanın yalnız karbohidrogen ixracatçısı yox, həm də təmiz enerji istehsalçısı kimi beynəlxalq nüfuzunun getdikcə möhkəmlənməsinə mühüm zəmin yaradır. Burada ABŞ-ın qabaqcıl texnologiyalarından, eləcə də investisiya potensialından yararlanmaq imkanları da ön plana çıxır. Amerika şirkətlərinin Azərbaycanla Günəş, külək və digər bərpa olunan enerji layihələrində iştirak etməsi isə ölkəmiz üçün həm iqtisadi, həm də ekoloji baxımdan mühüm perspektivlər açır.

Enerji əməkdaşlığı ilə yanaşı, dövlətimizin başçısının müsahibəsində vurğuladığı digər mühüm istiqamət rəqəmsal inkişafdır. Azərbaycan artıq "Dördüncü Sənaye İnqilabı" gündəliyini reallaşdıran ölkələr sırasındadır. ABŞ-la bu sahədə tərəfdaşlıq ölkəmizə böyük üstünlüklər qazandırır. Süni intellekt, rəqəmsal idarəetmə, "ağıllı" şəhər və kənd layihələri, kibertəhlükəsizlik və rəqəmsal iqtisadiyyatın inkişafı sahələrində Amerika texnologiyalarının tətbiqi Azərbaycan iqtisadiyyatının gələcək dayanıqlığını şərtləndirir. Bundan başqa, rəqəmsal transformasiya ölkəmizdə biznes mühitini daha da yaxşılaşdırır, startap ekosistemini gücləndirir və qeyri-neft sektorunun rəqabət qabiliyyətini artırır. Bu isə respublikamızın iqtisadi şaxələndirmə strategiyasının mühüm tərkib hissəsidir.

Ekspertlərin fikrincə, Azərbaycan – ABŞ rəqəmsal əməkdaşlıq planları gələcəkdə daha da genişlənəcək. İlk növbədə, tətbiq olunan süni zəka əsaslı idarəetmə sistemləri və avtomatlaşdırma həlləri sənaye, kənd təsərrüfatı və xidmət sektorlarında səmərəliliyi artıracaq. Rəqəmsal texnologiyalar sahəsində ixtisaslaşmış kadrlar üçün minlərlə yeni iş imkanı yaranacaq. Yerli informasiya texnologiyalar və startap şirkətlərinin ABŞ bazarına çıxışı asanlaşacaq, Azərbaycan regional texnoloji mərkəz statusu qazana biləcək. Amerika texnologiyalarının tətbiqi ilə dövlət və özəl sektorda məlumat təhlükəsizliyi səviyyəsi yüksələcək. Eyni zamanda, "Fintech" sahəsində əməkdaşlıq isə nağdsız ödənişlərin və elektron kommersiyanın daha sürətli inkişafına şərait yaradacaq.

Azərbaycanın qaz ixracı üzrə genişlənən coğrafiyası, qlobal enerji təhlükəsizliyində artan rolu isə ölkəmizi yalnız regionun deyil, həm də beynəlxalq sistemin mühüm aktorlarından birinə çevirir. Prezident İlham Əliyevin sözügedən müsahibəsində bu barədə bəhs etdiyi əsas məqamlardan biri – Azərbaycanın hazırkı qaz ixracı coğrafiyası ilə bağlı fikirləri diqqət çəkir. Dövlətimizin başçısının sözlərinə görə, hazırda ölkəmiz NATO-nun 10 üzvünü və ABŞ-ın 10 müttəfiqini təbii qazla təmin edir. Ümumilikdə, boru kəməri ilə qaz ixracı 14 ölkəni əhatə edir ki, bu da respublikamızı dünya üzrə qaz nəqlində aparıcı mövqelərdən birinə çıxarır.

Bu statistik göstəricilər isə Azərbaycanın enerji diplomatiyasının uğurlarının parlaq ifadəsidir. Xüsusilə, Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın oynadığı rol artıq strateji əhəmiyyət daşıyır. İndiki geosiyasi şəraitdə etibarlı enerji tərəfdaşı statusu isə ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır.

Prezident İlham Əliyevin açıqlamasında diqqətçəkən başqa bir məqam isə Suriyaya təbii qaz ixracı ilə bağlı idi. Bu, Azərbaycanın enerji ixrac coğrafiyasına Yaxın Şərqi də əlavə etməsi deməkdir. Bu addım yalnız kommersiya baxımından deyil, həm də geosiyasi baxımdan əhəmiyyətlidir.

Yaxın Şərq bazarına daxil olmaq Azərbaycanın regional enerji xəritəsində mövqelərini daha da gücləndirəcək. Bu proses həm də ölkəmizin nəqliyyat-logistika imkanlarının genişləndirilməsi, yeni kəmər və infrastruktur layihələrinin reallaşdırılması ilə paralel gedəcək.

Yeri gəlmişkən, qardaş Türkiyənin Kilis vilayəti vasitəsilə Suriyaya ötürülən Azərbaycan qazı mərkəzi Homs vilayətindəki "Cender Qaz" qazpaylama stansiyasına çatıb, oradan paytaxt Dəməşq yaxınlığındakı "Nasiriyə" və "Təşrin" istilik elektrik stansiyalarına yönləndiriləcək.

Suriyanın energetika nazirinin müavini Qayas Diyabın sözlərinə görə, qaz kəmərinin ötürücülük qabiliyyəti sutkada 3,4 milyon kubmetrdir. Hazırda kəmərlə 1,4 milyon kubmetr Azərbaycan qazı nəql olunur ki, bu da 250 meqavat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Nazir müavini Azərbaycan qazının Türkiyə üzərindən nəqlini Suriyanın sabitliyinə mühüm töhfə adlandırıb.

Qeyd edək ki, Azərbaycan – ABŞ münasibətlərində enerji sahəsi ilə yanaşı, siyasi dialoq, təhlükəsizlik, nəqliyyat və kommunikasiya, rəqəmsal əməkdaşlıq, eləcə də iqlim dəyişikliyi ilə mübarizə kimi sahələr də gündəlikdədir. Prezident İlham Əliyevin müsahibəsində vurğuladığı məqamlar isə bu tərəfdaşlığın qarşıdakı illərdə daha da dərinləşəcəyini göstərir.

***V.BİNYATOĞLU***
***XQ***

## *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Son günlərdə həm regional, həm də beynəlxalq aləmdə baş verən hadisələr Cənubi Qafqazda yeni mərhələnin başlandığını göstərir. Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması ilə bağlı irəliləyişlər, eyni zamanda, ABŞ-da Prezident Donald Trampın yürütdüyü siyasət regionun gələcəyi üçün əhəmiyyətli mesajlar verir. Azərbaycan və Ermənistan liderlərinin ABŞ görüşlərində sərhədlərin müəyyənləşdirilməsi, nəqliyyat yollarının açılması və qarşılıqlı etimadın bərpası kimi məsələlərdə razılaşmalar əldə olunması isə təkcə siyasi sabitlik üçün deyil, iqtisadi inkişaf baxımından da mühüm hadisədir.

Qeyd edim ki, əgər sülh bərqərar olarsa, Azərbaycan Qarabağın bərpasını və Naxçıvanla əlaqəni daha sürətli şəkildə həyata keçirəcək. Ermənistan isə təcriddən çıxaraq Türkiyə və Azərbaycanla iqtisadi münasibətlər qurmaq imkanı əldə edəcək. ABŞ-ın yeni yanaşması da diqqət çəkir. Donald Trampın ABŞ-a yenidən rəhbərlik etməsi ilə Vaşinqtonun xarici siyasətində daha çox iqtisadi maraqlar və güc balansı önə çıxır. Tramp administrasiyası Cənubi Qafqazda sabitlik və əməkdaşlığı dəstəkləməsi ilə regionda investisiya və ticarət imkanlarının genişlənəcəyi gözlənilir. Mümkün iqtisadi təsirlərə gəldikdə isə qeyd edim ki, yaxın gələcəkdə ABŞ sərmayələrinin artması, enerji və infrastruktur layihələrində Qərb şirkətlərinin iştirakı, eləcə də Azərbaycan və Ermənistanın qlobal ticarətə inteqrasiyası proqnozlaşdırılır.

Region üçün, necə deyərlər, bu cür fürsət pəncərəsi açılandan sonra ilk dəfədir ki, həm beynəlxalq dəstək, həm də tərəflər arasında qarşılıqlı razılaşma eyni vaxtda müşahidə olunur. Bu şəraitdən düzgün istifadə olunacağı təqdirdə isə Cənubi Qafqaz gərginlik zonası deyil, əməkdaşlıq məkanı kimi tanınacaq. Gənclər üçün yeni iş yerlərinin açılması, investisiya axını, eləcə də turizm və ticarət canlanması gerçəkləşəcək. Bir sözlə, sülh prosesi iki ölkə arasında münasibətlərin normallaşması ilə bərabər, eyni zamanda, regionun beynəlxalq iqtisadi sistemə daha səmərəli inteqrasiyasını sürətləndirəcək.

Beləliklə, Azərbaycan və Ermənistan arasında sülh prosesinin davam etməsi, üstəlik ABŞ kimi böyük gücün regionda sabitliyi dəstəkləməsi həm ölkələrimizin iqtisadi rifahı, həm də bölgədəki ümumi inkişaf üçün heç vaxt nəzərə çarpmayan bir fürsətdir. Bir sözlə, sülh sadəcə siyasi qərar deyil, iqtisadi tərəqqiyə açılan qapıdır.

# Rusiya və Cənubi Qafqaz: Kremlə başqa tələ lazımdırmı?

(əvvəli 1-ci səhifədə)



Heç şübhəsiz, sülhü əngəlləmək, erməni cəmiyyətində ajiotaj yaratmaq, türk düşmənçiliyini qızışdırmaq məqsədi daşıyan belə deyimlər Moskvanın siyasi sifarişidir. Rusiyada çox yaxşı görürlər ki, Azərbaycan və Ermənistan yekun barışa doğru gedir. Vaşinqtonda yaşananlar, eyni zamanda, yolun dönməzlik trayektoriyasını müəyyənləşdirib. Ayrıca onu da bildirək ki, ölkəmiz heç vaxt işğalçılıq niyyətinə düşməyib. Vaxtilə erməni təcavüzünə qol qoyanın da Rusiya olduğu sirr deyil. Eləcə də Moskvanın işğalın davamına şərait yaratdığı şübhəsizdir.

Mütləq zəfər qazandığı 44 günlük müharibədən sonra Ermənistana barış əlini uzadan da, sülh sazişinin şərtləri üzrə prinsipləri müəyyənləşdirən də məhz rəsmi Bakı olub. Azərbaycan hakimiyyəti dəfələrlə ədalətli sülhün faydalarından söz açıb. Yəni, ümumən, ölkəmiz xoş niyyətli davranıb. Hazırda isə heç deyilə bilməz ki, Vaşinqton təması ölkəmizə təcavüz niyyəti üçün şans qazandırıb. Çünki ortada yazılı saziş, Ağ ev kimi mötəbər məkanda imzalanmış üçtərəfli Birgə Bəyannamə var. Ən başlıcası isə sözümüzdür. Prezident İlham Əliyevin erməni həmkarı və Birləşmiş Ştatlar Prezidenti Donald Trampla mətbuata birgə bəyanatı əsnasında səsləndirdiyi fikirlərdən tam aydındır ki, Azərbaycan əldə edilmiş razılaşmaların həyata keçməsində maraqlıdır və bu səbəbdən Vaşinqton görüşünü mühüm təminat qismində qiymətləndirməklə, bir növ, barış üçün immunitet formalaşdırır: "İlk növbədə, qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur. Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək".

Bəli, elə bu fikirlərdən də aşkardır ki, Azərbaycanın niyyəti işğalçılıq yox, sülhdür. Ancaq Rusiyada eşidilən mesajların başqa tərəfi var. Ölkənin Dövlət Dumasının ayrı-ayrı deputatlarının bildirdikləri təxminən budur ki, Paşinyan Qərbin tələbi ilə bir çox erməni nəsillərinin uğrunda mübarizə apardıqları hər şeydən əl çəkib, ölkəni topdan və pərakəndə üsullarla satışa çıxarıb. Diqqət edək, bu sözləri otuz il ərzində Ermənistanda hər sahəyə nəzarəti həyata keçirən, ölkəni forposta çevirən ölkənin qanunverici orqanının təmsilçiləri bildirirlər. Necə deyərlər, utanmayasan, oynamağa nə var ki?

Heç şübhəsiz, Dövlət Duması üzvlərinin sərsəm iddiaları digər məsələlərlə yanaşı, həm də Azərbaycanın qərb rayonlarını Ermənistan vasitəsilə Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizinin yaradılmasından duyulan əndişənin nəticəsidir. Axı bu mühüm nəqliyyat arteriyasına nəzarətin 99 il müddətinə icarə əsasında ABŞ-a verilməsinə dair konkret razılıq var. Elə isə erməni nəsillərin mübarizə məntiqi sərsəmliyi üzərində dayanaq. Bu məntiqdəki həqiqət yükü diqqətdən yayınmır. Çünki həmin nəsillərin Cənubi Qafqazda hansı məqsədlə yerləşdirildikləri və nə kimi məkrli işlər gördükləri məlumdur. O da məlumdur ki, bölgədə məskunlaşdırılmış hayların iki yüz il ərzində, faktiki olaraq, rahat yaşayışları olmayıb. Həmişə Rusiyanın direktivləri əsasında hərəkət edərək, təxribatlar, qətllər, işğallar törədiblər. Əlbəttə, cavablarını da alıblar. Amma…

Digər tərəfdən, hayları avantürizm xəstəliyinə yoluxduran da məhz Rusiya olub. Baxın, ölkənin hazırkı bir nömrəli təbliğat ruporu, jurnalistikaya həqarət nümunəsinə çevrilmiş Vladimir Solovyov kimi zombi məxluq erməni xalqının qəhrəmanlığından, cəsurluğundan, mübarizliyindən dəm vurur. Belə təriflər elə-belədən deyil. Yəni, o təhrikçi mövqe tutur, keçmişi yada salaraq, hayları Azərbaycana qarşı qızışdırmaq məqsədi güdür. İsəyir ki, onlar qızışıb, ilk növbədə, Ermənistandakı hakimiyyəti devirsinlər. Sonrası asandır. Çünki baş nazir Paşinyan administrasiyasını iqtidar kürsüsündən uzaqlaşdıracaq qüvvə yalnız Rusiyaya bağlı ola bilər. İndi Ermənistanda qara-qışqırıq qaldıranların davranışları mahiyyətcə Rusiyanın sancısıdır. Halbuki, ölkə sancı çəkməyə, konstruktiv mövqe tuta bilər.

Əlbəttə, zamanında hayların avantürizm xəstəliyinə yoluxmaları Osmanlı əleyhinə köklənmiş Qərbin də maraq və mənafelərinə uyğun olub və buna görə də prosesə dinməz-söyləməz yanaşıb. Ancaq hazırda maraqlar dəyişib. Daha doğrusu, yeni maraqlar yaranıb və artıq hədəf Rusiyadır. İndi Cənubi Qafqaz müstəvisində yaşananlar həm də erməni amilinin anti-Rusiya köklənişinin təzahürüdür. Bu köklənişdə Ermənistanın ölkəmizlə sülhə gəlməsi isə qaçılmaz reallıqdır. Mövcud reallığı formalaşdıran isə Azərbaycandır. Dünya dərk edir ki, Azərbaycan artıq əvvəlki Azərbaycan deyil.

Əlqərəz, Ermənistandakı rusbaşlılar Rusiya Dövlət Duması üzvlərinin bu fikrini də təkrarlayırlar: İrəvan nə Bakıdan, nə də Vaşinqtondan nə isə əldə edə bildi. Çox güman, əldə etmək dedikdə vaxtilə Rusiya rəsmilərinin Qarabağın statusu məsələsi fonunda səsləndirdikləri şirnikləndirici vədləri nəzərlərində tuturlar. Demək istəyirlər ki, Qarabağa status haylar üçün mühüm dividend idi. Amma…

Ən başlıcası, Dövlət Dumasında bildirilir ki, guya, Moskva uzun illər Azərbaycanla Ermənistan arasında ədalətli sülhü təmin etmək istəyib. Bu fikir Rusiyanın torpaqlarımızın işğalını leqallaşdırmaq üçün vaxtilə aparılmış üzücü danışıqlar prosesini uzatmaq manevrlərini qabartmağa hesablanıb. Belə çıxır ki, hazırkı sülh gündəliyi ədalətsizdir. Niyə? Çünki erməni avantürizmini sıradan çıxarır. Hər halda, Rusiyada belə düşünürlər. Ölkədə belə düşünənlərin Ermənistandakı həmfikirləri isə rəsmi İrəvan əleyhinə hədyanlar yağdırırlar.

Bəli, Cənubi Qafqaz tarixində görünməmiş olaylar yaşanır. Mövcud coğrafiyada ilk dəfədir ki, regionun sülhə gəlmək istəyən iki dövlətinə münasibətdə Rusiyanın siyasi istebleşmentində aşkar aqressiya var. Azərbaycandakı rusbaşlılar iflicdirlər, cəmiyyətimizin ümumi anti-Rusiya köklənişi fonunda səsləri çıxmır və çıxa da bilməz. Çünki dövlət hakimiyyətimiz güclüdür, xalq-iqtidar vəhdəti yüksək səviyyədədir.

Ermənistanda isə durum fərqlidir. Hay müxalifərinin hazırkı isteriyası fərqlilik və müəyyən mənada mərkəzi hakimiyyətin zəiflik təzahürüdür. Ancaq başa düşüləndir. Həmin müxalifətin baş nazir Paşinyanın Ermənistanla Azərbaycan arasında müharibənin olmayacağına, sülhün qərarlaşacağına dair söylədiklərinə isterik münasibətini isə əsla anlamaq olmaz. Bu münasibət əsl fazişm əlamətidir və güman edirik ki, rəsmi İrəvan sülhü təhdid edən mövcud meyli aradan qaldırmaq üçün əzm və iradə nümayiş etdirəcək. Həm də ona görə ki, başqa yol yoxdur. Əsası iki yüz il əvvələ söykənmiş nifaqı aradan qaldırmaq şansı kimlərəsə, hansısa qüvvələrəsə görə əldən verilə bilməz. Regiona sülh gəlməlidir, vəssalam!

Bir məqamı da vurğulayaq ki, Azərbaycan heç vaxt Rusiyanın Cənubi Qafqazdakı rolunu saymazdan gəlməyib. Elə indinin özündə də bununla əlaqədar dəyişən heç nə yoxdur. Bakı Moskva ilə soyuqluğun aradan qalxması üçün ötən ilin dekabrında Rusiya səmasında sərnişin təyyarəmizin vurulmasına görə məsuliyyət daşıyanların cəzalandırılmalarını, müvafiq konpensasiyanın ödənilməsini tələb edir. Ölkəmiz tələblərinin yerinə yetiriləcəyi təqdirdə, hər şeyin əvvəlki axarına qayıdacağına eyham vurur. Amma görünür, Kreml üçün bunun önəmi yoxdur. Rusiya təyyarə olayı ilə bağlı gərginliyi saxlamaqla, özünün regional maraqlarını gerçəkləşdirmək üçün plasdarm axtarışındadır. Deməli, Azərbaycanın ədalətli tələblərinin yerinə yetiriləcəyini gözləmək əbəsdir.

Əslində, Ermənistan da indiki durumda Rusiya ilə ziddiyyətlərin artmasında maraqlı deyil. Çünki, böyük ölçüdə, yanaşsaq, Paşinyan hakimiyyəti istəyinə çatıb, Azərbaycanla sülhün Rusiyasız trayektoriyası var və ən əsası müstəqil erməni dövlətçiliyinin gələcək yaşamı təminatlıdır. Əlbəttə, Ermənistan üçün də sülhün, belə demək mümkünsə, Rusiyasızlığı o demək deyil ki, Moskva regiondan tamamilə sıxışdırılmalıdır.

Doğrudur, Qərbin bəzi dairələri Rusiyasız Cənubi Qafqaz modelində israrlı olsalar da, görünən odur ki, nə Azərbaycan, nə də Ermənistan üçün belə bir hədəf var. Yəni, hər iki ölkə Rusiyanın qlobal regional marşrutlardan bəhrələnməsi məntiqini qabardır. Rəsmi Bakı bu mövqeni hər zaman bölüşüb, yeni reallıqları region və regiona bağlı tərəflərin mənfəəti kontekstində vurğulayıb. Özü də son dərəcə konseptual əsaslandırmalarla.

İrəvana gəlincə, Paşinyan "Fox News" telekanalına müsahibəsində bildirdi ki, Vaşinqtonda imzalanmış sənədlərin icrası nəinki Rusiyaya, eyni zamanda, İrana da hiss olunan faydalar gətirəcək: "Bu saziş həyata keçirildikdə İran Fars körfəzindən Qara dənizə qədər olan dəmir yolu infrastrukturuna çıxış əldə edəcək. Rusiya və İran öz aralarında dəmir yolu əlaqəsi yarada biləcək".

Sonda yekun nəticəyə gələrək bildirək ki, Rusiya pozitiv gündəliklərlə razılaşmır. Ölkənin imperiya xisləti rasional davranmağa, Cənubi Qafqaz dövlətlərinə münasibətdə normal yanaşma nümayişinə imkan tanımır. Beləliklə, Rusiya həm də güclü Azərbaycanın formalaşdırdığı sülh gündəmini əngəlləməyə qol çırmayır və buna görə erməni amilindən yararlanmağa cəhd göstərir. Hadisələr isə Moskvanın istəyinə müyəssər ola bilməyəcəyi istiqamətə doğru gedir. Elə bir istiqamətə ki, orada Rusiya üçün böyük rüsvayçılıq var. Hərbə-zorba, basıb keçmə dövrü geridə qalıb. Azərbaycan və Ermənistan Ukrayna ola bilməz. Ona görə ki, ölkəmiz heç zaman rupora çevrilmədiyi kimi, tələyə də çevriləcək deyil. Rusiyaya isə düşdüyü Ukrayna tələsi kifayətdir. Yaxşı olar ki, ölkənin başbilənləri mövcud məqamı yaxşı-yaxşı düşünsünlər və nə qədər gec deyil, tutduqları yoldan geri dönsünlər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Pol Qoblun nəzərə almadığı reallıq

**(əvvəli 1-ci səhifədə)**

Daha bu adda münaqişə mövcud deyil. Azərbaycan bu qədər müddətdə Avropanın hüquqi-siyasi, insan haqları, demokratiya institutlarının, BMT-nin məlum qurumlarının işğalçını ram edəcəyini gözlədi, amma onlardan bir hərəkət və ədalət görməyəndə münaqişəni beynəlxalq hüququn bizə verdiyi səlahiyyət çərçivəsində özü həll etdi. Amma arxivə çevrilməsinə baxmayaraq "Qobl planı" ara-sıra gündəmə gəlir, müxtəlif interpretasiyalarda şərh olunur.




Oxucularımıza xatırladaq ki, hayların keçmiş "qarabağlı prezidenti" Koçaryanın oğlu, Ermənistan parlamentinin üzvü Levon Koçaryan 6 ay bundan əvvəl tribunadan bəyan etdi ki, əgər Ermənistan rəhbərliyi doxsanıncı illərdə "Qobl planı"na razılaşsaydı, indi Qarabağ Ermənistanın tərkibində idi. Üç on il əvvəlki reallıqdan xəbərsiz Levon, əlbəttə ki, bunu deyərkən faktları təhrif edir, yalan danışırdı. Həmin planın reallaşması bir neçə səbəbdən mümkün deyildi. Başlıca səbəb bölgəyə sülhün gəlməsini istəməyən, Azərbaycanın əsas ərazisi ilə Naxçıvanın birləşdirilməsindən aşkar qorxan, Türk dünyasının nəqliyyat vasitələrinin birləşdirilməsinə heç vaxt razı olmayan qüvvələrin bu planın icrasına imkan verməmələri idi.

***

Bu günlərdə yerli media qurumlarından biri məşhur analitik, ABŞ Dövlət katibinin keçmiş xüsusi müşaviri, həmin planın müəllifi Pol Qobldan blits-müsahibə alıb. Sabiq məmurun bizim üçün maraq kəsb edən bir çox fikirlərinin icmalını oxucularımızla bölüşmək qərarına gəldik və ekspertdən məsələyə rəy bildirməsini xahiş etdik. Jurnalistin vaxtilə Azərbaycanla Ermənistan arasında ərazilərin mübadiləsini təklif edən sülh planının müəllifi kimi bu planın hərbi əməliyyatları dayandıra biləcəyinə inanıb-inanmadığı barədə sualına cavabında cənab Qobl deyir ki, zaman hadisələrə öz korrektələrini edir: "Bu gün Azərbaycan xeyli güclənib və supergüclərin həmin illərdə qurduğu oyun qaydalarını yenidən yazıb".

Bu cavab-etirafın ardınca analitik müxbirin Vaşinqton sammitindən sonra Cənubi Qafqazda kommunikasiyaların yeni konfiqurasiyasını və qüvvələr balansını necə gördüyü barədə sualını belə cavablandırır: "O plan 1992-ci ilin yanvarında, SSRİ dağılandan dərhal sonra təklif edilmişdi. Ərazilərin mübadiləsi nəyi nəzərdə tuturdu? İrəvan Qarabağı, Bakı isə Zəngəzuru müharibəyə son qoymağın vasitəsi kimi alacaqdı. Doğrudur, üstündən çox vaxt keçib, insanlar həlak olub, itkin düşənlər var, münaqişə qurbanlarının son sayı hələ tam hesablanmayıb. Amma reallıq tam başqadır. İndi Bakı Qarabağı geri alıb və Naxçıvana quru yolu istəyir. Şübhəsiz, Azərbaycan Cənubi Qafqazda dominant qüvvədir. İrəvan Vaşinqton razılaşmalarının Bakını qane edəcəyinə, Ermənistan dövlətçiliyinə təhlükə yaranmayacağına ümid edir və ABŞ-ın da bu mövqedən çıxış edəcəyini gözləyir".

Media nümayəndəsinin ABŞ-ın Cənubi Qafqazda mövcudluğunun əhəmiyyəti, bunun nə qədər ciddi və uzunmüddətli ola biləcəyi, eləcə də Trampdan fərqli olaraq, eks-prezidentlər Obama və Baydenin bölgəyə niyə maraq göstərmədikləri barədə ciddi və çoxmənalı sualına Pol Qobl maraqlı cavab verib: "Əslində, Birləşmiş Ştatlar Xəzər hövzəsi və Mərkəzi Asiyadan neft və qazın nəql olunduğu marşrut və İranı cilovlamaq vasitəsi kimi Cənubi Qafqazda çoxdan maraqlıdır. Bu yanaşma bu gün də dəyişməyib. Prezident Donald Tramp hazırda fürsətin yarandığını gördü və ondan istifadə etdi. Bu, onun təkbaşına çox şeyə nail ola biləcəyinə inamını və təkcə Rusiyanı deyil, həm də avropalıları regiondan sıxışdırıb çıxarmaq istəyini özündə əks etdirir. Obama və Bayden dövründə Vaşinqtonda belə bir marağın olmadığını söyləmək doğru olmaz. Açıq danışsaq, indi dəyişən Rusiyanın bölgəyə və dünyaya qarşı təcavüzkarlığı və Vaşinqtonun Ukraynada və başqa yerlərdə bununla məşğul olmaq üçün sərfəli yolları tapmaq cəhdləridir".

Ardınca Moskvanın Cənubi Qafqaza nəzarəti tamamilə itirməsinə hansı reaksiyanı verə biləcəyindən danışan politoloq qarşıda bölgə uğrunda geosiyasi mübarizənin mümkünlüyünü istisna etmədiyini, amma onun nə dərəcədə gərgin olacağını indidən söyləməyə çətinlik çəkdiyini dilə gətirib: "Rusiya üçün bu region ekzistensial əhəmiyyət kəsb edir, amma ABŞ üçün bir o qədər də önəmli deyil. Ona görə də böyük ehtimalla ABŞ bir müddət başqa coğrafiyaya diqqət yetirsə, Rusiya ciddi müqavimətlə üzləşmədən irəliləyə bilər".

Kifayət qədər subyektiv xarakter daşıyan bu açıqlamasında Qoblun aşkar nəzərə almadığı reallıqlar var. Ən başlıca reallıq Tramp Administrasiyasının həm Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması, həm də Zəngəzur dəhlizi (TRİPP) kimi transmilli layihənin reallaşması üçün göstərdiyi ciddi səylər və atdığı konkret və hüquqi addımlardır.

***

Nəhayət, İranın TRİPP-ı qəbul edib-etməyəcəyi, bu marşrutun onun maraqlarına cavab verib-verməyəcəyi barədə suala Pol Qobl təcrübəli diplomat fəhmi ilə praqmatik cavab verməyə çalışıb: "İran Ermənistanın ərazi bütövlüyünü və suverenliyini qorumaq və Qərbin bölgəyə hərbi müdaxiləsinin qarşısını almaq şərti ilə Zəngəzur (TRİPP) dəhlizi layihəsi ilə razılaşacağını deyir. Bununla belə, mənim fikrimcə, sonuncunun mümkün olub-olmayacağı sualı açıq qalır. Dəhliz ətrafında hadisələr müxtəlif ssenarilər üzrə inkişaf edə bilər. Hər şey tərəflərin dialoqa hazır olub-olmamasından asılıdır. Ümid etmək istərdim ki, Zəngəzur dəhlizi (TRİPP) kompromis və anlaşma zonasına çevriləcək.

Sonda bir daha 33 əvvəlki "Qobl planı" mövzusuna qayıdaraq demək istəyirik ki, bəzi ekspertlər ərazi mübadiləsi cəhdinin baş tutmasına mane olanların son nəticədə özləri də bilmədən, hətta istəmədən Azərbaycanın maraqlarına xidmət etdiklərini yazırlar. Çünki dəyiş-düyüş üçün nəzərdə tutulan Laçın yolu artıq bütövlükdə öz sahibinin əlindədir, Zəngəzur dəhlizi isə açılmaq üzrədir. Yəni, "Qobl planı"na düşən ərazi və anlayışdan əsər-əlamət qalmayıb. Digər tərəfdən, axı hazırda ABŞ rəhbərliyində belə bir istəyin motivi mövcud deyil. Sadə bir səbəbdən: bütün dünya Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıyır.

Doğrudur, o zaman Pol Qoblın planı reallaşmadı, amma üstündən xeyli keçəndən sonra Azərbaycan Prezidenti İlham Əliyevin zərgər dəqiqliyi ilə hazırladığı torpaqların işğaldan azad edilməsi planı dünyanın şahidlik etdiyi siyasi iradəsi, sərkərdə qətiyyəti ilə reallaşdı. Ali Baş Komandanın Zəfərə apardığı qurtuluş savaşının və suverenliyin tam bərpasının əsas şüarı isə bu oldu: "Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın!"

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**



– "Qobl planı" o zaman Ermənistan və Azərbaycan arasında hərbi münaqişəyə yol verməmək üçün irəli sürülmüş ərazi mübadiləsi planı idi. Söhbət münaqişənin dinc yolla həlli variantından gedirdi. Doğrudur, biz artıq heç bir ərazi mübadiləsi baş vermədən münaqişəyə nöqtə qoymuşuq. Yəni, Azərbaycan öz tarixi ərazisinin bütövlüyünü və suverenliyini tam təmin etdi. Sadə dildə desək, daha bölgədə Pol Qobl planına ehtiyac qalmadı. Amma mahiyyət etibarı ilə onun yanaşma versiyası indi də mövcuddur. Bu yanaşmanın məğzi ondan ibarətdir ki, əgər bölgə dövlətləri – Azərbaycan, Ermənistan və Gürcüstan regionda sülh və sabitlik istəyirlərsə, mövcud problemləri öz aralarında danışıqlar yolu ilə həll etməyi öyrənməlidirlər. Kiminsə kənardan gəlib öz maraqlarını təmin etməkdən ötrü bölgəmizdə qarşıdurma yaratmasına imkan verməməliyik. Həmin maraqlar ondan ibarətdir ki, tərəflərdən biri bölgənin dünyaya yolunun tam açıq olmasını istəyir, amma elə güclər də var ki, misal üçün, Rusiya və İran, bu yolun varlığını belə arzulamırlar. Çünki həmin yolun mövcudluğu bölgənin onların nəzarətindən çıxması, Qərbə, dünyaya inteqrasiyası deməkdir.

Təbii ki, bu yanaşma regionda maraqları olan "böyük güclər" üçün qəbul edilən vəziyyət deyil. Ümumiyyətlə, Cənubi Qafqazda kənar aktorların güc balansının yaradılması olduqca vacibdir. Bu zaman hansısa konkret güc bölgə ölkələrindən birinin üstünə yerimək istəyəndə digərləri onu çəkindirə bilsin. Bakı bu balansı yaratmaq üçün bütün zəruri işləri görür. Türkiyə ilə müttəfiqliyimiz, Çinlə strateji partnyorluğumuz, himəyadar kimi ABŞ-ın bölgəyə cəlb olunması və Vaşinqtonda Ermənistanla imzalanan vacib sənədlər məhz balansyaratma diplomatiyasına xidmət edir. Aydın məsələdir ki, bu balans formalaşanda artıq Rusiya əvvəllər olduğu kimi, bölgədə geniş əl-qol ata bilmir. Moskvanın göstərdiyi mənfi reaksiyanın əsas səbəbi budur. Amma Azərbaycan kimi bölgənin digər iki ölkəsi də hərəkət və davranışlarında möhkəm dursalar, Kreml reallıqla barışmalı olacaq. Belə olan təqdirdə heç bir kənar güc Cənubi Qafqazda "at oynatmaq" xəyalına düşməyəcək.

---

# Qarabağ cəlladlarının qara günləri

## *Prokurorluq Koçaryan və tərəfdarlarının 2008-ci il hadisələrinin qurbanlarına təzminat ödəməsini tələb edir*

**Ermənistanı 20 il çapıb-talamış "Qarabağ klanı"nın üzvləri 2018-ci ildə siyasi səhnədən, necə deyərlər, süpürülüb atıldıqdan sonra hakimiyyətdə olduqları dövrdə yol verdikləri cinayət əməllərinə görə ədalət mühakiməsi önündə cavab verirlər. Bu proses yalnız hüquqi məsələ olmayıb, eyni zamanda, ölkədə siyasi və ictimai ədalət duyğusunun bərpası kimi qiymətləndirilir. Cəmiyyətin uzun illər gördüyü korrupsiya və qanunsuzluqlara qarşı reaksiyası indi məhkəmə proseslərinə yönəlir. Bir sıra ekspertlər hesab edirlər ki, bu proseslər yalnız keçmişdəki qanunsuzluqları ifşa etmək üçün deyil, həm də ölkədə hüquq sisteminə inamı bərpa etmək üçün əhəmiyyətlidir.**

Bu istiqamətdə son yenilik Ermənistan Baş Prokurorluğunun ölkənin ikinci prezidenti Robert Koçaryandan və digər rəsmi şəxslərdən 2008-ci il fevralın 19-da keçirilən prezident seçkilərindən sonra – martın 1-də baş vermiş hadisələr nəticəsində həlak olmuş şəxslərə və onların ailə üzvlərinə (zərərçəkənlərə) dəymiş 670 milyon dram məbləğində təzminat ödənilməsini tələb etməsidir. "Hetq.am" saytının yaydığı məlumata görə, Baş Prokurorluq Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsində həmin hadisələr vaxtı rəhbər vəzifələrdə çalışan şəxslərə qarşı dövlət maraqlarının müdafiəsi ilə bağlı iddia qaldırıb. Bu iş üzrə R.Koçaryanla yanaşı, Milli Təhlükəsizlik Şurasının sabiq katibi Armen Gevorkyan, həmin dövrdə silahlı qüvvələrin baş qərargah rəisi olan Seyran Ohanyan və müdafiə nazirinin sabiq müavini Yuri Xaturov da ittiham edilir. Təzminatın məbləği, yəni 670 milyon dram birgə məsuliyyət qaydasında, cavabdehlərin hər birindən bərabər şəkildə tutulmalıdır. İddia Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsinin hakimi Aşxen Qarslyanın adına imzalanıb. Hələlik işin icraata qəbul edilməsi barədə qərar qəbul edilməyib. Adları çəkilən məmurlar 2008-ci ildə konstitusiya quruluşunu devirməkdə ittiham olunurlar.

***

Xatırladaq ki, Ermənistanda 2008-ci il fevralın 19-da keçirilmiş prezident seçkilərinin ilkin nəticələri dərc olunandan dərhal sonra prezidentliyə namizəd, ölkənin birinci prezidenti Levon Ter-Petrosyan tərəfdarlarını İrəvanın mərkəzində, "Azadlıq" meydanında toplayaraq seçki prosesi zamanı baş vermiş total qanun pozuntularına etirazlarını bildirməyə çağırıb. Ter-Petrosyan və tərəfdarları seçkilərin azad və ədalətli olmadığını iddia ediblər. Onlar fevralın 20-dən başlayaraq gündəlik seçki pozuntularına qarşı kütləvi etiraz aksiyaları keçirərək "Azadlıq" meydanında və ona bitişik parkda toplaşıblar. Hakimiyyət orqanlarının nümayişləri dayandırmaq tələblərinə baxmayaraq, etirazlar martın 1-dək davam edib. Martın 1-də sübh çağı 9 günlük etirazlardan sonra polis dəyənəklərdən və elektroşok avadanlıqlarından istifadə edərək meydanda əməliyyat keçirib. Polis ərazini nümayişçilərdən təmizləyərək bağlayıb. Həmin vaxt etirazçıların əksəriyyəti hələ də yuxuda idi. Onların arasında gecəni meydanda keçirən qadınlar, uşaqlar və qocalar da olub. Nümayişçilərlə hüquq-mühafizə orqanları əməkdaşları arasında baş verən qarşıdurmada azı 10 nəfər həyatını itirib. Ölənlərdən 8-i mitinq iştirakçısı, 2-si polis olub. Təxminən 230 nəfər xəsarət alaraq xəstəxanalara müraciət edib. Ter-Petrosyan özü isə polis tərəfindən zorla evinə aparılıb və faktiki olaraq ev dustaqlığına salınıb.

Buna baxmayaraq, etirazçılar martın 1-də günorta saatlarında İrəvanın mərkəzində (şəhər meriyasının və Fransa səfirliyinin yaxınlığında) toplaşmağa başlayıblar. Günün sonuna yaxın etirazçıların və polisin sayı xeyli artıb. Nümayişçilərin sayının artmasına tab gətirə bilməyən hüquq-mühafizə orqanları saat 16:00-da ərazidən sıxışdırılaraq çıxarılıb. Fəallar maneələr qurmaq üçün trolleybus və avtobusları aşırıblar. Axşam saatlarında Myasnikyan meydanında barrikada quran nümayişçilərlə polis arasında toqquşma baş verib. Təxminən saat 22:00-da prezident R.Koçaryan Ermənistan parlamentinin təsdiqi ilə nümayişləri qadağan edərək və medianın fəaliyyətini ciddi şəkildə məhdudlaşdıraraq, 20 günlük fövqəladə vəziyyət elan edib. Koçaryan öz qərarını onunla əsaslandırıb ki, etirazçılardan bəziləri, guya, Maştots prospektində yaxınlıqdakı mağazaları qarət edib, bir neçə polis maşını və avtobusunu yandırıb, polis əməkdaşlarına ağır xəsarət yetiriblər.

Fövqəladə vəziyyət rejimi martın 2-də təxminən gecə saat 1-də qüvvəyə minib və Ter-Petrosyan Fransa səfirliyi yaxınlığında



etirazçıları evlərinə qayıtmağa çağırmağa məcbur olub. Bununla da etirazlara son qoyulub.

Dinc etiraz aksiyalarının amansızlıqla yatırılmasından sonra bir sıra beynəlxalq hüquq-müdafiə təşkilatları Ermənistan hakimiyyətini törətdiyi vəhşiliyə görə qınayıblar. Onlar yaydıqları bəyanatlarda bildiriblər ki, çadırda gecələyən silahsız, mülki şəxslərə qarşı həddindən artıq güc və zorakılıq tətbiq etmək yolverilməzdir. Beynəlxalq hüquq-müdafiə təşkilatları zorakılıq tətbiq edən polis əməkdaşlarının cəzalandırılmasını tələb ediblər. Ancaq Ermənistan hakimiyyəti bütün çağırışları qulaqardına vurub. Bu qanlı proseslərin yekunu olaraq Xocalı cəlladı, əli erməni xalqı ilə yanaşı Azərbaycan xalqının da qanına batmış Serj Sarkisyan prezident kürsüsünə yiyələnib. Onun adına 52,82 faiz səs yazılıb.

***

Yeri gəlmişkən, qeyd edək ki, Koçaryanın Sarkisyanı özünə siyasi varis seçməsi təsadüfi deyildi. Onlar hər ikisi 1954-cü ildə Xankəndidə doğulublar. Keçmiş DQMV-də əvvəlcə komsomol, sonra isə partiya strukturlarında bir sıra kiçik vəzifələrdə çalışan bu iki şəxs 1980-ci illərin sonlarından vilayətdə separatizm hərəkatının öncüllərinə çevriliblər. Sonradan keçmiş separatçı rejimdə yüksək "vəzifələr" tutublar. Daha sonra isə Ermənistanda hakimiyyətə yiyələniblər. Əvvəlcə Koçaryan, sonra isə Sarkisyan ölkəyə 10 il rəhbərlik edib. Koçaryan Sarkisyanı özünə siyasi varis seçməklə həm öz siyasi xəttinin davam etdirilməsini, həm də Qarabağ klanının hakimiyyət üzərində nəzarətini təmin etməyi qarşısına məqsəd qoymuşdu. Sarkisyanın dövlət idarəçiliyinə gətirilməsi, əslində, köhnə sistemin qorunub saxlanması üçün atılmış addım idi. Bu, Ermənistan siyasətində uzun illər korrupsiya və oliqarxik maraqların dərinləşməsinə şərait yaradıb. Məhz həmin siyasətin nəticəsində ölkə iqtisadi və sosial baxımdan tənəzzül dövrünü yaşayıb. Eyni zamanda, Koçaryan Sarkisyanın hakimiyyətə gəlişini təmin etməklə Qarabağ klanının yol vermiş olduğu cinayətlərə görə mafiyanı gözləyən təqibdən canını qurtarmış olub. Ancaq tam qurtara bilməyib. 2018-ci ildə erməni xalqının, necə deyərlər, zəli kimi qanını içən keçmiş rejimi tarixin zibilliyinə atması ilə Qarabağ klanının da qara günləri başlayıb. Həmin dövrdən etibarən onların günü məhkəmə salonlarında keçir. Hətta bir müddət Koçaryan özü də həbsdə qalıb. Sonradan Koçaryanın bağlı olduğu xarici qüvvələrin Paşinyan iqtidarına təzyiqləri nəticəsində azadlığa buraxılıb.

***

İndi isə Qarabağ klanının uzun illər Ermənistanı talaması, xalqın sərvətlərini şəxsi maraqları üçün mənimsəməsi, siyasi opponentləri susdurması və azad sözə divan tutması açıq şəkildə, cəmiyyətin gözü qarşısında mühakimə edilir. Bu, sadəcə, bir neçə yüksək vəzifə daşımış şəxsin məsuliyyətə cəlb olunması deyil, bütöv bir korrupsioner, cinayətkar sistemin iflasıdır. Ermənistanda keçirilən bu məhkəmə prosesləri həm də illərlə xalqın qanını sormuş rejimə tarixi qiymət verməkdir.

Əslində, Koçaryan–Sarkisyan rejiminin süqut etməsi və onların məhkəmə önünə çıxarılması bir növ ilahi ədalətin təntənəsi kimi qəbul olunmalıdır. Çünki Xocalıda dinc azərbaycanlıların soyqırımına, Ermənistan daxilində isə 20 il ərzində cinayətkar rejimə rəhbərlik edən bu qaranlıq qüvvə indi öz cinayətlərinə görə cavab verməli olur. Ermənilər özləri də anlayırlar ki, ölkəni müharibəyə sürükləyən, iqtisadiyyatı çökdürən, ordunu dağıdan, gəncləri xarici ölkələrə köçməyə məcbur edən məhz bu klan olub.

Bugünkü reallıq göstərir ki, tarix heç nəyi unutmur. Qarabağ klanının taleyi də bunun bariz nümunəsidir. Onlar vaxtilə özlərini toxunulmaz hesab edir, güc strukturlarına – polisə, orduya arxalanaraq xalqın səsini boğurdular. Ancaq indi həmin səs məhkəmə salonlarında, küçələrdə, qəzet səhifələrində, digər media orqanlarında onlardan haqq-hesab tələb edir. Beləliklə, Qarabağ klanının mühakiməsi yalnız hüquqi akt deyil, həm də tarixi ədalətin bərpasıdır. Ermənistanda illərlə xalqa zülm edən bu mafioz sistem indi sonunu yaşamaqdadır. Bu gün onların mühakiməsi, sabah isə erməni xalqının böyük əksəriyyətinin "hə" dediyi Azərbaycan xalqı ilə regionda sülh içində yaşamaq istəyi gerçəkləşəcək. İlahi ədalət isə hər zaman gec-tez öz hökmünü verir. Koçaryan–Sarkisyan rejiminin timsalında gördüyümüz kimi.

***Səxavət HƏMİD***
***XQ***

# Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



**V MƏQALƏ**

## Vaşinqton zəfəri

Obrazlı desək, indi Vaşinqton Azərbaycanın sülhyaratma məntiqinə və məkanına daxildir. Əlbəttə, burada söhbət Azərbaycan Prezidentinin sülhsevər siyasətinin ABŞ tərəfindən qəbul edilməsindən gedir. V.Vilsonun məlum tezislərindən bu yana keçən müddətdə Azərbaycanla bağlı belə hadisə olmamışdı. Dünyanın ən güclü dövlətinin prezidenti Azərbaycan liderini Vaşinqtonda qəbul edir və ona Ağ Evin açarını verir. Bunun mənalarından biri də ondan ibarətdir ki, "Cənab Prezident İlham Əliyev, Siz Ağ Evi siyasətinizlə fəth etdiniz və onun qapıları həmişə üzünüzə açıqdır, çünki açarlardan biri də Sizdədir"!

Doğrudan da IV məqalədə vurğulanan faktlar göstərir ki, Azərbaycan dövlət və ölkə olaraq çox çətin yol keçməli oldu. Dövlətçilik və xalqın suveren iradəsi o qədər zərbələr aldı ki, indi də onların təsirləri qalmaqdadır. Buna baxmayaraq, Azərbaycan şərəfli yol qət etdi. Avrasiyada yeganə dövlət oldu ki, son 80 ildə heç bir ölkənin edə bilmədiyini bacardı: torpaqlarını təkbaşına işğaldan azad və ərazi bütövlüyünü əbədi bərpa etdi.

Bir sıra analitiklər vurğulayırlar ki, İkinci Dünya müharibəsindən sonra başqa heç bir ölkə qələbəni yüksək səviyyədə saxlaya bilməmişdir. Azərbaycan isə müharibədə qalib gəldi və bu zəfərin nəticələrini qorudu. Hətta suverenlik məsələsində tam müsbət nəticəyə nail oldu. Postmüharibə mərhələsində bir çox güclü dövlət nə qədər çox çalışdısa, Azərbaycanın qələbədən əldə etmədiklərinə təsir göstərə bilmədi. Vaşinqtonda Azərbaycan Prezidentinin imzası məhz bu reallığı təsbit edən sənəddədir! Burada bir haşiyə çıxmaq lazım gəlir.

## Liderlik imzası

Azərbaycan mediasında "imza" termininin çox müxtəlif və uğurlu metaforik dəyərləndirməsinə rast gəlinir. Azərbaycan jurnalistikası bütövlükdə obrazlı ifadədə çox güclüdür. Mən bu məqalədə jurnalistlərlə təşbeh yarışına girməkdən çox uzağam. Lakin fəlsəfi obraz kimi olduqca maraqlı görünən "liderlik imzası" ifadəsini təhlil etmək yerinə düşərdi.

"Liderlik imzası", əlbəttə, məcazdır. Onun anlamı uğurlu liderin XXI əsrin çağırışları fonunda liderlik fəlsəfəsini dünya miqyasında qəbul etdirməsi ilə bağlıdır. Lider fəaliyyətində əldə etdiyi nailiyyətlərlə o dərəcədə fərqlənir ki, onun özünəxas "liderlik imzası"ndan danışmaq lazım gəlir. D.Tramp Vaşinqtonda faktiki olaraq Azərbaycan Prezidentinə müraciətən "Siz müasir siyasi liderlər arasında öz imzası olan lidersiniz" fikrini ifadə etdi. Hətta bir məqamda heyranlığını gizlətmədi. D.Tramp İlham Əliyevə üz tutaraq "Siz çox gözəl danışıqlar aparırsınız", söylədi.

Bunlar tərif deyildir, gerçəkliyin etirafıdır. Azərbaycan Prezidenti lider kimi realpolitikada fəaliyyəti və diplomatik məharəti ilə müasir siyasi liderlər sırasında öz imzası olan dövlət başçısıdır. İlham Əliyevin liderlik imzasının bir sıra özəl keyfiyyətləri və ya əlamətləri mövcuddur.

## Yaradıcı liderlik

İlham Əliyev siyasətdə həmişə yaradıcı olmuşdur. 2003-cü ildən başlayan Prezidentlik fəaliyyətində isə istənilən situasiyaya yaradıcı və təmkinlə yanaşmaq əsasında düzgün qərarlar qəbul etmişdir. Liderologiyada qərar qəbuletmə çox mühüm faktor kimi təqdm edilir. Liderin böhranlı vəziyyətlərdə hansı qərarı qəbul etməsindən bütövlükdə ölkənin taleyi asılı olur. İki nümunə göstərək.

2016-cı ilin aprelində müharibənin dördüncü günündə dayandırılması vaxtında və dövlətçilik naminə verilmiş düzgün qərar idi. Azərbaycan həmin döyüşlərdə əldə etdiyi nailiyyətləri maksimum siyasi, ideoloji və geosiyasi anlamlarda qiymətləndirə bildi. Həmin döyüşlərdə əldə edilən motivasiya sonrakı mərhələ üçün çox gərəkli oldu. Eyni zamanda, qaytarılan əraziləri ermənilər bir daha işğal edə bilmədilər.

2020-ci ilin payızında İlham Əliyev hərbi əməliyyatları noyabrın 8-də dayandırmaqla strateji olaraq çox doğru qərar verdi. Bu hadisədən üç il sonra baş verənlər Azərbaycan Prezidentinin çox haqlı olduğunu sübut elədi. Azərbaycan 2020-2023-cü illərin ən böhranlı anlarında qəbul etdiyi qərarlarla tarixi və prinsipial qələbəyə nail oldu. Azərbaycan Respublikası müstəqil olandan bəri ilk dəfə həm ərazi bütövlüyünü bərpa etdi, həm də suverenliyi tam təmin elədi!

Deməli, liderin iki düzgün və vaxtında verdiyi qərar bütövlükdə dövləti zəfərə apardı. Bu, liderin situasiyaya yaradıcı və təmkinli yanaşa bilməsinin gözəl nümunəsidir.

## Qətiyyətlilik

İlham Əliyevin 22 illik Prezidentlik təcrübəsində həmişə qətiyyətli hərəkət etdiyi sirr deyildir. II Qarabağ müharibəsinin gedişində Prezidentin tərəddüd etmədən qətiyyətli addımlar atdığının hər gün şahidi olduq. İlham Əliyev hərb meydanında Ali Baş Komandan kimi qətiyyətli idi. Dünya KİV-nin təmsilçilərinə müsahibə verəndə eyni çalışqanlığı, təmkini və qətiyyəti ilə fərqləndi. Çoxlu sayda gərgin keçən müsahibələrdə Prezidentin yorulduğunu duyan olmadı. Hərbi əməliyyatları dayandırdığı gün V.Putin və N.Paşinyanla gecə səhərə kimi apardığı müzakirələrdə daim məntiqli və qətiyyətli mövqeyi ilə fərqlənmişdir. Bunun nəticəsində Azərbaycan istədiyi sənədin imzalanmasına nail olmuşdur.

Qətiyyətlilik postmüharibə mərhələsində Ermənistanla münasibətlərin normallaşması üzrə aparılan danışıqlarda bir daha özünü parlaq surətdə göstərdi. İlham Əliyevi heç bir təzyiq cəhdi, diplomatik hiyləgərlik, siyasi avantüra silkələyə bilmədi. Azərbaycan Prezidenti qətiyyətli şəkildə öz mövqeyi üzərində dayandı.

## Təhlil və proqnozlaşdırma

Müasir liderlikdə bu iki keyfiyyət çox mühüm hesab olunur. Lider hər bir situasiyanı dərindən və reallığa uyğun təhlil etməlidir. Lakin bu, kifayət etmir. Həqiqi lider düzgün proqnozlar da verməlidir. Öncədən apardığı hesablamalar əsaslı olmalıdır. Burada siyasi təhlilin ən çətin cəhəti ondan ibarətdir ki, hər bir situasiyanın özünəməxsus analizi olmalıdır. Proqnozlaşdırma yalnız real vəziyyətə uyğun təhlil aparmaq əsasında səmərəli ola bilir.

Tədqiqatçılar həmin sırada liderin münaqişələrin baş verməməsi üçün təhlil və proqnozların aparılmasının əhəmiyyətini xüsusi araşdırırlar. Çünki dövlətin hansısa münaqişəyə daxil olması olduqca acı nəticələr verir. Belə alınır ki, artıq münaqişədə olan dövlət üçün təhlil və proqnozlaşdırma ikiqat ağır işə çevrilir. Lider mövcud münaqişədən uğurla çıxmağı sonrakı mərhələdə həm davamlı inkişafın, həm də təhlükəsizliyin təmini ilə sinxronlaşdırmalıdır. İlham Əliyev bu çətin vəzifənin öhdəsindən yeni tarixi mərhələnin başladığını elan edəndən sonra uğurla gəlməkdədir. Bu mərhələdə Prezidentin təhlilləri real, proqnozları isə tam əsaslıdır. Bunu Azərbaycanın Vətən müharibəsindən sonra atdığı addımların verdiyi nəticələr sübut edir. Və bu məqamda başqa bir çox vacib faktorun təhlilinə keçməliyik.

## Liderliyin strateji hədəfi: sülh və inkişaf

Yaradıcılıq, qətiyyətlilik, təhlil və proqnozlaşdırma liderliyin strateji hədəflərinə xidmət etməlidir. Liderliyin strateji hədəfi sülh və inkişafın harmoniyası olduqda isə ümumi mənzərə daha da mürəkkəbləşir. Postmünaqişə mərhələsində bu hədəflərə çatmaq asan iş deyildir. Məsələ burasındadır ki, "sülh" və "inkişaf" mənaca fərqli məfhumlardırlar. Onların konseptual sintezinə nail olmaq ciddi prosesdir. İnkişaf ölkənin bütün əsas parametrlər üzrə tərəqqisini ifadə edirsə, sülh bu proses üçün uyğun mühitin yaradılmasını nəzərdə tutur. Ancaq təcrübə göstərir ki, heç də bütün ölkələrə postmünaqişə mərhələsində inkişaf üçün dayanıqlı sülh mühitini yaratmaq müyəssər olmur. Kolumbiyada belə bir vəziyyət yaranmışdı. Deməli, sülh və inkişaf bir-birilərini tamamlayanda davamlı sabitlikdən danışmaq mümkün olur.

Azərbaycanın sülhyaradıcı fəaliyyətində vurğulanan məqam diqqətlə nəzərə alınmışdır. İlham Əliyev regional miqyasda sülhlə inkişafın bir-birini tamamlaması üçün böyük fəaliyyət göstərdi. Bu baxımdan regionun inkişafı ilə Azərbaycanın inkişafı məsələsi arasında daxili məntiqi əlaqə quruldu. Bakının təşəbbüsləri milli səviyyədə müsbət nəticələr əldə edilməsinin regional miqyasa uğurlu proyeksiyası ilə sıx əlaqələndirildi. Nümunə göstərə bilərik.

Azərbaycan Avropa İttifaqı ilə 2006-cı ildə, 2011-ci ildə və 2022-ci ildə enerji sahəsində əməkdaşlıqla bağlı memorandumlar imzalamışdır. Həmin sənədlərin bir mühüm ortaq cəhəti mövcuddur; onların hər birində enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin qarşılıqlı bağlantısı ayrıca bənd kimi nəzərə alınmışdır. Buna görədir ki, 2008-ci il Rusiya-Gürcüstan hərbi toqquşması və 2013-2014-cü il Rusiya-Ukrayna enerji böhranı zamanı Azərbaycan qonşu dövlətin (Gürcüstanın) milli təhlükəsizliyinin təmininə ciddi töhfələr verdi. Əgər bu baş verməsəydi, Cənubi Qafqazda sülhdən əsər-əlamət qalmayacaqdı.

Vətən müharibəsindən sonrakı müddətdə də Azərbaycan Cənubi Qafqazın sabitlik, təhlükəsizlik və əməkdaşlıq məkanı olması üçün əhəmiyyətli proqramların həyata keçməsinin təşəbbüskarı olmuşdur. Bu aspektdə də Gürcüstandan keçərək Qara dənizin dibi ilə Şərqi Avropaya çəkiləcək bərpa olunan enerji marşrutu xüsusi əhəmiyyət daşıyır. Son günlər bu layihəyə Ermənistanın da qoşula biləcəyi haqqında informasiyalar yayılır.

Nəhayət, son Vaşinqton sazişi sülhlə inkişafın harmoniyasına ən yaxşı nümunədir. Bu, Azərbaycanın sülhyaradıcı fəaliyyətinin birbaşa Cənubi Qafqaz dövlətlərinin sürətli inkişafına töhfə verəcəyinin nümunəsidir.

Beləliklə, Azərbaycan postmüharibə mərhələsində sülhsevər siyasəti ilə həqiqi mənada Cənubi Qafqazın tarixində yeni geosiyasi mərhələnin təməlini qoymuşdur. Onun başlıca əlaməti son 300 ildə ilk dəfə olaraq regional sülhlə inkişafın harmoniyasının optimal modelinin tapılmasıdır. Bu modelin mərkəzində sülh və sabitlik dayanır. Onu təminetmə mexanizmi kimi enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətinə nail olmaq lazım gəlir.

Bu parametrlər isə regionun davamlı və sabit inkişafının təmin edilməsinə əsas verməlidir. O da regional inkişafı sistemli və dayanıqlı etmək üçün faydalı sistem yaratmaq zərurətini ortaya çıxarır. Həmin prosesdə Zəngəzur Dəhlizinin üzərinə böyük funksiya düşür. Həm də bu baxımdan Vaşinqton razılaşması tarixi mahiyyət kəsb edir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Beynəlxalq həyat**

**Dünyanın diqqətlə izlədiyi Tramp-Putin sammiti Alyaskadakı Elmendorf-Riçardson hərbi bazasında baş tutdu. Təxminən, iki saat yarım davam edən görüşdən sonra Rusiya prezidenti Vladimir Putin qonaqpərvərliyə görə təşəkkür edərək, Ukraynada münaqişənin əsas səbəblərinin aradan qaldırılmasının vacibliyini dedi. Donald Tramp isə hələlik nəticə olmadığını, lakin əhəmiyyətli irəliləyişin əldə edildiyini vurğuladı. O, Putinin müharibəni bitirmək istədiyinə əmin olduğunu söylədi və tezliklə yeni görüşə ümid etdiyini vurğuladı. Putin isə zarafatla "Next time in Moscow?" ("Növbəti dəfə Moskvada?") sualı ilə cavab verdi. Amma okeanın bu tayında görüşün nəticələrinə fərqli prizmalardan yanaşırlar.**

# Qərb, Rusiya və Ukrayna: Sülhə yol tapılacaqmı?



"Axios" jurnalisti Barak Ravidin yazdığına görə, Putin görüşdə atəşkəs ideyasını dəstəkləmədi. O, bunun əvəzinə müharibəyə son qoymaq üçün hərtərəfli sülh müqaviləsi imzalanmasını təklif etdi. Prezident Tramp da sonradan sosial şəbəkə profilində yazdı ki, atəşkəs sazişləri çox vaxt davamlı olmur, ən doğru yol sülh müqaviləsidir. Cənab Tramp, həmçinin Ukrayna prezidenti Volodimir Zelenski və NATO rəhbərləri ilə telefon danışıqlarını "çox yaxşı" adlandırdı və yaxın günlərdə Ukrayna prezidentinin Oval kabinetə gələcəyini açıqladı. O əlavə etdi ki, əgər proses uğurla irəliləsə, tezliklə Putinlə növbəti görüş də keçirilə bilər.

Qərb mətbuatı mənbələrinə istinadən yazırlar ki, ABŞ Rusiya ilə sülh sazişi imzalanacağı təqdirdə Ukraynaya təhlükəsizlik zəmanəti kimi "NATO-nun 5-ci maddəsinin" analoqunu təklif edir. Bu məsələnin Donald Trampın Rusiya prezidenti ilə görüşündə qaldırıldığı və bu ideyanın Vladimir Putin tərəfindən bəyənildiyi iddia olunur. Amerika tərəfinin Ukrayna prezidenti Volodimir Zelenskiyə Vaşinqtonun dəstəkləyə biləcəyi mümkün təhlükəsizlik təminatları ilə bağlı təklif səsləndirdiyi də vurğulanır. Mənbənin sözlərinə görə, belə təminatlardan biri "NATO müqaviləsinin 5-ci maddəsinə" bənzər öhdəlik ola bilər, lakin bu zəmanət birbaşa NATO tərəfindən verilməyəcək.

İddia olunur ki, məzmunca "NATO-nun 5-ci maddəsinə" oxşar, lakin Alyansın iştirakı olmadan təminat "Putinlə razılaşdırılmışdır". Eyni zamanda, CNN-in verdiyi məlumata görə, Avropa liderləri və Tramp ABŞ-ın Ukraynaya dəstək verəcəyinə dair təhlükəsizlik zəmanətlərini müzakirə edirlər. Avropa rəsmiləri bildirirlər ki, sülh razılaşması əldə olunarsa, ABŞ və avropalılar NATO-nun iştirakı olmadan "5-ci maddə kimi" təhlükəsizlik zəmanətlərini dəstəkləyəcəklər. Məlum olduğu kimi, NATO müqaviləsinin 5-ci maddəsində kiməsə hücum edildiyi təqdirdə hər bir üzv üçün kollektiv müdafiə nəzərdə tutulur.

Amma bu təklif Ukraynada birmənalı qarşılanmır. Məsələn, deputat, Ali Radanın hüquq-mühafizə fəaliyyəti üzrə komitəsinin üzvü Maksım Bujanskinin sözlərinə görə, NATO-nun 5-ci maddəsinə bənzər Ukrayna üçün təhlükəsizlik zəmanətləri Kiyevi real müdafiə ilə təmin etməyəcək, əksinə, "Budapeşt Memorandumu-2"-yə bənzəyəcək. Bujanski əlavə edir ki, yardım digər NATO-ya üzv dövlətlərlə birgə verilir. Bu, mütləq hərbi xarakter daşımır və hər bir ölkənin maddi imkanlarından asılıdır. Buna görə də Alyansa üzv olan hər bir dövlət hansı töhfə verəcəyinə müstəqil qərar verir. Hər bir ölkə son məqsədin "Şimali Atlantika regionunda təhlükəsizliyin bərpası və qorunması" olduğunu nəzərə alaraq digər üzv dövlətlərlə məsləhətləşir: "Bu, heç bir şey deyil, sadəcə, "Budapeşt Memorandumu-2"-dir. Prinsipcə heç bir təminat olmadığını etiraf etmək və yalnız özünə güvənmək daha sadə və təhlükəsizdir və istənilən kömək əlavə bonusdur".

Dünən Avropa Birliyi liderlərinin qəbul etdikləri bəyanatda da qeyd olunur ki, Ukraynanın suverenliyi və ərazi bütövlüyü danışıqlarda əsas prinsip olmalıdır. Avropa üçtərəfli sammitə hazır olduğunu bəyan etsə də, birmənalı şəkildə bildirdi ki, Rusiya Ukraynanın NATO və Aİ yoluna veto qoya bilməz. Avropa ölkələri Ukraynanı gücləndirmək, hərbi əməliyyatlara son qoymaq və davamlı sülhə nail olmaq üçün işlərini davam etdirəcəklərini də açıqladılar. Eyni zamanda, Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsi istiqamətində yeni addımların atılacağı da vurğulanır.

Əlbəttə, Alyaska görüşü hələlik konkret nəticə verməsə də, prosesin gedişatı gələcəkdə bir neçə istiqamətdə inkişaf edə bilər. Birincisi, Donald Trampın vasitəçiliyi ilə Kiyev və Moskva arasında ilkin razılaşmaların əldə olunması ehtimalı var. Bu proses Zelenskinin Vaşinqton səfəri ilə yeni mərhələyə keçə bilər. İkincisi, Avropa liderlərinin birgə bəyanatı göstərir ki, onlar Trampın təşəbbüslərinə qoşulmağa hazırdırlar. Yaxın aylarda ABŞ–Aİ–Ukrayna üçtərəfli formatının təşəkkül tapması mümkündür. Bundan başqa, Vladimir Putinin atəşkəs deyil, hərtərəfli müqavilə istəyi onun uzunmüddətli təminatlar əldə etmək niyyətini göstərir. Bu, həm təhlükəsizlik zəmanətləri, həm də sanksiyaların yumşaldılması məsələsini gündəmə gətirə bilər.

Amma münaqişənin uzanması riski də qalır. Ona görə ki, tərəflərin ciddi güzəştə getməyəcəkləri heç kimə sirr deyil. Avqustun 18-də Ağ Evdə keçiriləcək Tramp-Zelenski danışıqlarında ciddi irəliləyiş əldə olunmasa, Vaşinqtonun münaqişənin həll olunması istiqamətindəki fəallığı səngiyə bilər. Çünki Donald Trampın son bəyanatları belə deməyə əsas verir ki, ABŞ münaqişənin tezliklə həll olunmasında çox maraqlıdır. Amma münaqişə tərəflərinin mövqelərindəki ciddi ziddiyyətlər sülhün yaxında olmadığı qənaətini gücləndirir Belə olduğu təqdirdə müharibənin qeyri-müəyyən müddətə uzanacağı qaçılmaz olacaq.

"Qoca qitə"nin də son bəyanatından belə görünür ki, Avropa prezident Trampın sülh təşəbbüslərini dəstəkləyir, lakin Ukrayna münaqişəsinin həllində Kiyevin haqlı mövqeyini dəstəkləməkdən imtina etməyəcək. Yəni avropalılar birmənalı şəkildə diqqətə çatdırırlar ki, Rusiyaya qarşı tətbiq etdikləri sanksiyaları yumşaltmaq fikrində deyillər. Eyni zamanda, Avropa liderləri vurğuladılar ki, ərazisi ilə bağlı qərarları Ukrayna özü verməlidir. Bu bəyanatı "The New York Times" qəzeti də belə qiymətləndirir ki, Avropa İttifaqı prezident Donald Trampın Ukrayna üzrə ilkin atəşkəs olmadan hərtərəfli sülh sazişinin bağlanması təşəbbüsünü faktiki olaraq dəstəkləmədilər.

Bir sözlə, Alyaska görüşü hələlik yalnız "dialoqun başlanğıcı" kimi qiymətləndirilə bilər. Hadisənin sonrakı inkişafı tərəflərin davranışlarından asılı olacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Tovuzda 3,5 ballıq zəlzələ

**Avqustun 16-da Tovuz rayonunda zəlzələ baş verib.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.

Yerli vaxtla saat 08.31-də qeydə alınan zəlzələnin maqnitudası 3,5 olub.

Zəlzələ ocağı yerin 10 kilometr dərinliyində yerləşib.

Zəlzələ hiss olunub.

*XQ*



# Dördüncü Sənaye İnqilabı: Azərbaycanın rəqəmsal gələcəyi

**XXI əsrin ən mühüm çağırışlarından biri rəqəmsal texnologiyaların sürətli inkişafı və onların iqtisadiyyat, idarəetmə, sosial həyat, eləcə də təhsil və səhiyyə kimi sahələrdə geniş tətbiqi ilə bağlıdır. Bu gün dünyada baş verən qlobal dəyişikliklər yeni iqtisadi modelin formalaşmasına, istehsal və idarəetmə sistemlərinin köklü transformasiyasına gətirib çıxarır. Məhz buna görə də “Dördüncü Sənaye İnqilabı” anlayışı müasir dövrün əsas istiqamətlərindən biri olaraq ön plana çıxır.**



Azərbaycan da bu proseslərdən kənarda qalmır. Ölkəmizdə rəqəmsal texnologiyaların inkişafı, müasir innovativ həllərin tətbiqi, yeni texnoloji imkanların iqtisadiyyata inteqrasiyası dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan regionda rəqəmsal transformasiya sahəsində öncül mövqelərini möhkəmləndirir.

Dördüncü Sənaye İnqilabı ənənəvi istehsal və idarəetmə mexanizmlərini köklü şəkildə dəyişdirən texnoloji yeniliklərin sintezi kimi diqqət çəkir. Burada süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap və digər innovativ həllər mühüm rol oynayır.

Bu texnologiyalar yalnız sənaye və istehsalatda deyil, həm də gündəlik həyatın bütün sahələrində tətbiq edilir. Məsələn, süni intellekt tibbdə diaqnostikanın dəqiqliyini artırır, kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə kömək edir, logistika sahəsində isə yükdaşımaların optimallaşdırılmasına şərait yaradır. Eyni zamanda, əşyaların interneti sayəsində “ağıllı” evlər və “ağıllı” şəhərlər layihələri reallığa çevrilir.

Azərbaycanda rəqəmsal transformasiya siyasəti də diqqətdə saxlanılır, bu məqsədlə genişmiqyaslı proqramlar həyata keçirilir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə əsaslanılaraq nəzərdə tutulan prioritet çərçivəsində ölkədə rəqəmsal xidmətlərin genişləndirilməsi, elektron hökumətin təkmilləşdirilməsi, innovasiya ekosisteminin inkişafı, startapların dəstəklənməsi və texnoloji parkların yaradılması reallaşdırılır.

Qeyd edək ki, rəqəmsal transformasiya iqtisadi şaxələndirməyə, qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin yaradılmasına və vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Bu, Azərbaycanın regionda rəqəmsal liderə çevrilməsi yolunda atdığı mühüm addımlardan biridir. Prezident İlham Əliyevin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılan Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SIM) barədə isə onu deyə bilərik ki, adı çəkilən platforma ölkənin bu sahədə strateji məqsədlərinin həyata keçirilməsində mühüm rol oynayır.

Yeri gəlmişkən, 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda (DİF) Prezident İlham Əliyev və DİF-in prezidenti Borge Brende arasında Forumun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb və bunun əsasında DİF-in Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzi yaradılıb. Bu, DİF-in MDB məkanında yaradılan ilk mərkəzidir. 4SİM 2021-ci il aprelin 1-dən tarixindən bu Mərkəzin də fəaliyyətini koordinasiya edir.

4SİM-də DİF-in digər mərkəzləri ilə, eləcə də süni intellekt, maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlığa üstünlük verilir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahələrində müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qurum 4Sİ texnologiyalarının tətbiqini təşviqini, təlim və maarifləndirmə proqramlarının gerçəkləşdirilməsini, sənaye və rəqəmsal transformasiya üzrə tədqiqatların aparılmasını, yeni texnologiyaların tətbiqinə dair araşdırmaların və müvafiq yol xəritələrinin hazırlanmasını reallaşdırır. Eyni zamanda, beynəlxalq təşkilatlar, akademik dairələr və biznes sektorları ilə əməkdaşlığa, təcrübə mübadiləsini aparılmasına böyük əhəmiyyət verir.

Mərkəzin əsas vəzifələri sırasında Dördüncü Sənaye İnqilabı texnologiyalarının tətbiqi ilə bağlı milli siyasətin formalaşdırılması, beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya, rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların təhlili, eləcə də qabaqcıl texnologiyaların ölkə iqtisadiyyatına inteqrasiyası ilə bağlı prioritetlər xüsusi yer tutur. 4SIM, eyni zamanda, Azərbaycanın beynəlxalq tərəfdaşlarla əməkdaşlıq platformasıdır. Bu qurum BMT, Dünya İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, müxtəlif ölkələrin müvafiq qurumları ilə təcrübə mübadiləsi aparır.

Bu məsələdə qlobal əməkdaşlıq və Azərbaycanın mövqeyi də xüsusi diqqət çəkir. Çünki Dördüncü Sənaye İnqilabı təkcə milli inkişaf üçün deyil, həm də beynəlxalq əməkdaşlıq baxımından mühüm önəm daşıyır. Azərbaycan bu sahədə bir sıra təşəbbüslərlə çıxış edir, regional əməkdaşlıq layihələrinə töhfə verir. Məsələn, ölkəmizin Dünya İqtisadi Forumu ilə birgə fəaliyyət çərçivəsində Dördüncü Sənaye İnqilabı üzrə Mərkəzlər Şəbəkəsinin fəal üzvü olması da bunun bariz ifadəsidir. Bu isə Azərbaycanın qlobal texnoloji xəritədə önəmli mövqe tutmasına imkan yaradır.

Rəqəmsal texnologiyaların böyük əhəmiyyət verilməsi isə respublikamızın iqtisadi inkişafına yeni nəfəs gətirir. Ümumiyyətlə, innovativ həllərin tətbiqi istehsalın səmərəliliyini artırır, biznes mühitini yaxşılaşdırır, sahibkarlar üçün yeni əlverişli imkanlar açır. Bundan əlavə, rəqəmsal texnologiyalar sosial sahələrdə də mühüm rol oynayır. Elektron təhsil platformaları, rəqəmsal səhiyyə xidmətləri, elektron hökumət portalları və “ASAN xidmət” kimi təşəbbüslər vətəndaşların gündəlik həyatını asanlaşdırır, dövlət xidmətlərinə çıxış imkanlarını genişləndirir.

Hazırda Dördüncü Sənaye İnqilabının (Sənaye 4.0) çağırışları fonunda “Sənaye 4.0 Hazırlıq” Proqramı həyata keçirilir. İqtisadiyyat Nazirliyinin dəstəyi ilə reallaşdırılan bu layihənin məqsədi yerli müəssisələrin Sənaye 4.0 texnologiyalarına inteqrasiyası, əməliyyat səmərəliliyinin artırılması, innovasiyaların təşviqinə dəstək göstərməklə onların rəqabət qabiliyyətinin yüksəldilməsidir.

İqtisadi İnkişaf Nazirliyinin məlumatına əsasən, proqram çərçivəsində müəssisələrin beynəlxalq metodologiya əsasında texnoloji hazırlıq səviyyəsi qiymətləndirilir, daha sonra müəssisələrin mühüm ehtiyaclarına uyğun texnoloji transformasiya üzrə yol xəritələri hazırlanır. Yol xəritələrinin icrası zamanı müəssisələrə maliyyə və peşəkar ekspert dəstəyi göstərilir.

Sənaye 4.0 transformasiyası müəssisələrə mühəndis və əməliyyat xərclərinin optimallaşdırılması, məhsuldarlığın artması, istehsal keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması kimi üstünlüklər verir. Bu üstünlüklər müəssisələrin daha çevik, rəqabətqabiliyyətli və davamlı fəaliyyət göstərməsinə imkan yaradır.

# Çinlə Orta Dəhliz əməkdaşlığının hədəfləri

**Son illər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) mühüm seqmenti olan Bakı Dəniz Ticarəti Limanının infrastruktur imkanlarının genişləndirilməsi, tranzit və logistika xidmətlərinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bunun da nəticəsində Bakı Limanının həm regional, həm də qlobal ticarətdə əsas logistik mərkəz kimi əhəmiyyəti getdikcə artır.**



Bugünlərdə Çinin Bakıdakı səfiri xanım Lu Mey “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin tabeliyindəki “Bakı Beynəlxalq Dəniz Limanı”na baş çəkib. Qurumdan verilən məlumata əsasən, səfir “Bakı Beynəlxalq Dəniz Limanı” MMC-nin direktoru Eldar Salahov ilə görüşüb. Burada qonaqlara limanın infrastruktur imkanları, son illərdə qazanılan uğurlu nəticələr, eləcə də iki ölkə arasında yükdaşımalar sahəsində əldə edilən göstəricilər barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, ikitərəfli əməkdaşlığın inkişafı və Orta Dəhliz çərçivəsində tərəfdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub. Bakı Limanının Orta Dəhlizin mühüm tranzit mərkəzlərindən biri kimi strateji əhəmiyyətini vurğulayan E.Salahov Çindən Avropaya uzanan yük axınlarının daha səmərəli və sürətli şəkildə həyata keçirilməsi üçün birgə səylərin önəmini qeyd edib.

Səfir Lu Mey isə öz növbəsində Çin şirkətlərinin Orta Dəhlizdən istifadə imkanlarını yüksək qiymətləndirərək iki ölkə arasında ticarət və logistika əlaqələrinin daha da gücləndirilməsi üçün mövcud potensialdan istifadənin vacibliyini bildirib.

Qeyd edək ki, 2024-cü ilin 7 ayı ərzində Bakı Limanından keçməklə Çindən Qərb, eləcə də əks istiqamətdə, o cümlədən Azərbaycanın Çinlə ticarət dövriyyəsi üzrə ümumi yükaşırma həcmi 360 min ton təşkil etdiyi halda, bu ilin eyni dövründə həmin göstərici 3 faiz artaraq 371 min tondan çox olub. Xüsusilə konteyner daşımalarında ötən ilin eyni dövrü ilə müqayisədə 105 faizdən çox artım qeydə alınıb. Bu ilin birinci yarısında Bakı Limanından keçməklə Çindən Qərb və əks istiqamətə, ümumilikdə, 25 min 611 TEU ekvivalentində konteyner daşınıb.

Əməkdaşlığın gedişində Çin və Azərbaycan arasında Orta Dəhliz üzrə yükdaşımalarda artım dinamikası müşahidə olunur. Belə ki, 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edildiyi halda, artıq bu ilin 7 ayı ərzində bu göstərici 225 blok-qatar təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artım deməkdir. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Bu ilin 7 ayında, ümumilikdə, blok-qatarlarla 24 min TEU yük daşınıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə, təxminən, 2 dəfə çoxdur.

Bu ilin əvvəllərində Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta Dəhlizin inkişafı üzrə səmərəli əməkdaşlıq məqsədilə “Middle Corridor Multimodal Ltd” birgə müəssisəsi yaradılıb. 3 ölkənin birgə müəssisə çərçivəsində əməkdaşlığı Orta Dəhliz üzrə fasiləsiz, etibarlı və səmərəli yükdaşıma əməliyyatlarının təmin edilməsinə, “vahid pəncərə” vasitəsilə müştəri rahatlığının artırılmasına yönəlib. Bugünlərdə isə Çinin “China Railway Container Transport Corp. Ltd.” şirkəti də sözügedən müəssisəyə qoşulub. Heç şübhəsiz, bu da Çindən Avropa istiqamətində göndərilən konteyner yüklərinin təşkili üçün yeni imkanlar yaradacaq.

Son illər beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkanda yerləşən Azərbaycan və Çin Xalq Respublikası yükdaşıma sahəsində fəal əməkdaşlıq edirlər. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmiz Çinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünə dəstək verən ilk dövlətlərdən biri olub. Bu baxımdan “Bir kəmər, bir yol” strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Ümumilikdə, Böyük İpək Yolu və müasir “Bir kəmər, bir yol” strategiyası üçün çox vacib rol oynayan ölkəmizin nəqliyyat-logistika üstünlüyü açıq şəkildə özünü göstərir. Bundan əlavə, Avropa ilə Çin arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars xətti, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı kimi önəmli infrastruktur layihələri “Bir kəmər, bir yol” təşəbbüsü və ümumilikdə, regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, dünyanın ən böyük ixracatçı və ikinci ən iri idxalçı ölkəsi olan Çinin də Azərbaycanın son dərəcə geniş imkanlara malik bu nəhəng nəqliyyat-logistika sahələrinə marağı getdikcə artır.

# Pirallahı modern “sənaye adası”na çevrilir

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Pirallahı Sənaye Parkında investisiya həcmi 129 milyon manata yaxın olan 7 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Ötən müddətdə sahibkarlar tərəfindən görülmüş işlərə, ümumilikdə, 56 milyon manata yaxın investisiya yatırılıb. Bunun da hesabına 150-dən çox daimi iş yeri yaradılıb.**




Pirallahı Sənaye Parkı ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması ilə yanaşı, qeyri-neft sənayesi məhsullarının istehsalının artırılmasında və ixracının genişləndirilməsində mühüm rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, indiyədək burada 70 milyon manatlıq məhsul istehsal edilib. Bu ilin ilk yarısında da parkın ərazisində yüksək iqtisadi fəallıq müşahidə olunub. Yanvar-iyun aylarında parkda 8,6 milyon manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15 faiz çoxdur.

Xatırladaq ki, Pirallahı Sənaye Parkı ölkə Prezidentinin 2016-cı il 14 sentyabr tarixli sərəncamı ilə yaradılıb. Ötən müddətdə park üçün ayrılmış 30 hektar ərazi tam olaraq sahibkarların istifadəsinə verilib.

# Azad Qarabağda bərpa-quruculuq sürətlənir

*I yarımildə bu işlərə 2 milyard manata yaxın vəsait xərclənib*



**Ölkəmizin işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işləri sürtələ davam etdirilir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin birinci yarısında bütün maliyyə mənbələri hesabına işğaldan azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 1 milyard 989 milyon 798 min manat vəsait sərf edilib.**

Cari ilin yanvar-iyun aylarında ən çox vəsait Kəlbəcər (408 milyon 11 min manat), Laçın (303 milyon 122,1 min manat) və Ağdam (260 milyon 833,3 min manat) rayonlarına ayrılıb. Yeri gəlmişkən, azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə bu ilin dövlət büdcəsindən 4 milyard manat vəsaitin ayrılması proqnozlaşdırılıb. İlin ilk 6 ayı ərzində isə büdcədə nəzərdə tutulmuş vəsaitin 1 milyard 552,4 milyon manatı və ya 38,8 faizi istifadə olunub.

# Mənzil tikintisinə 1,3 milyard manat yatırılıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar- iyun aylarında respublikada əsas kapitala yönəldilən investisiyalardan yaşayış evlərinin tikintisinə 1,3 milyard manat (2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 51,9 faiz çox) sərf olunub.**



Qeyd edək ki, cari ilin ilk yarısında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 8 milyard 73 milyon manat investisiya yönəldilib. Neft-qaz sektorunda investisiyaların həcmi 23,8 faiz azalsa da, qeyri-neft-qaz sektoruna yatırılan sərmayələrin həcmi 13,5 faiz artıb.

Ümumi investisiyanın 4 milyard 68 milyon manatı və ya 50,4 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 672 milyon manatı (33,1 faizi) xidmət sahələrinə, 1 milyard 334 milyon manatı (16,5 faizi) isə yaşayış evlərinin tikintisinə yönəldilib. Ümumi sərmayənin 49,1 faizi dövlət, 50,9 faizi qeyri-dövlət sektorunun investorları tərəfindən qoyulub.

Sərmayə qoyuluşunun 78,2 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. Daxili mənbələrdən əsas kapitala yönəldilən investisiyanın dəyəri ümumi sərmayənin 75,2 faizi qədər olub.

# Qızıl və gümüş istehsalı artıb

**Cari ilin yanvar – iyul aylarında Azərbaycanda 1862 kiloqram qızıl istehsal edilib. Bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 614,5 kiloqram və ya 49,2 faiz artım deməkdir. Xatırladaq ki, ötən ilin 7 ayında ölkədə 1248 kiloqram qızıl istehsal olunmuşdu. Bu barədə məlumat Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-iyul aylarının sosial-iqtisadi inkişafına dair hesabatında yer alıb.**



Komitənin məlumatına əsasən, bu ilin avqust ayının 1-nə ölkədə hazır qızıl ehtiyatının miqdarı 167,5 kiloqram olub. Bununla yanaşı, ötən 7 ayda ölkədə 2533 kiloqram gümüş istehsal edilib ki, bu da əvvəlki ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 626,7 kqiloqram və ya 32,9 faiz çoxdur. Avqust ayının 1-nə ölkədə hazır gümüş ehtiyatının miqdarı isə 577,3 kiloqram təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ***
***XQ***

*Cəfər Namiq Kamal – 75*




**Yubileyi ilə bağlı haqqında söhbət açmaq istədiyimiz Cəfər Namiq Kamalı qardaşı İlham Namiq Kamalla eyni sənət yolunun "qoşa relsi" saymaq olar. Bu cür düşünməyimizə, bəlkə də, böyük Məmməd Arazın misraları vəsilə olub:**

# "Səhnə əkizi" – kiçik qardaş



*İki ömür yolu – bir dəmir yolu,*
*Bizimçün qurulub bu dayanacaq.*
*Nə sənin mənim tək duyanın olub,*
*Nə məni sənin tək duyan olacaq...*

Hər iki qardaşın taleyinə tanınmış tetr xadimi, Xalq artisti, xalqın sevimlisi olmaq düşüb ki, bu da hər ailədə baş verən analogiya deyil. İllərin necə sürətlə gəlib-getdiyini sezməyən 75 yaşlı Cəfər Namiq Kamal oğlu Əhmədov 1950-ci il avqustun 17-də – qardaşı İlhamdan ilyarım sonra dünyaya göz açıb. Maraqlı burasıdır ki, yaşca kiçik olsa da, İlhamı teatra ilk dəfə məhz o aparıb. Pionerlər sarayında birgə oynadıqları personajlarla – Həsən və Hüseyn olaraq sənətə gəliblər.

Onun uşaqlıq xatirələrindən: "Biz dil açan gündən evin içində səhnəciklər qururduq. Aktyor olmaq sanki alın yazımız idi. Qonaq gələndə sevinirdik ki, yemək bitəndən sonra biz onlara bədii hissəni təqdim edəcəyik. İlk mən çıxdım bu yola, daha sonra İlhamı da özümlə apardım. O vaxtı siniflərə gəlib həvəskar aktyorlar yığırdılar. Bütün sinif mənim adımı verdi. Beləliklə seçildim. İlk rolum da internat uşağını oynamaq oldu. Digər rol üçün uşaq tapılmırdı. Dedim ki, evdə qardaşım var. Dedilər, o da gəlsin. Səhər əl-ələ tutduq, getdik. O gündən sonra bu sənətdə birlikdə addımladıq".

Bu barədə İlham Namiq Kamal da öz kitabında yazıb. Cəfər Namiq Kamal İlham Namiq Kamalla fəxr edir, ondan ilham alır. Qardaşı da eləcə. Araları saz olmasaydı, hər ikisi Namiq Kamal təxəllüsünü götürməzdi ki...

O, 1972-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni–maarif fakültəsini bitirib. 1972-ci ildən Gənc Tamaşaçılar teatrında aktyor işləyən Cəfər Əhmədov tamaşalarda oynadığı bir sıra rolları ilə seyrçilərin rəğbətini qazanıb. Bu sıraya Rəcəb ("Şirinbala bal yığır", S.Qədirzadə), Elçi ("Bir parça Vətən", F.Sadıq), Qasid ("Rüstəm və Zöhrab", İ.Coşqun), Aparıcı ("Şəhidlər", B.Vahabzadə), Uçitel Həsənov ("Danabaş kəndinin məktəbi", C.Məmmədquluzadə), Qaçay bəy ("Qonşu qonşu olsa, kor qız ərə gedər" R.Əfəndiyev) və s. aiddir.

Cəfər Namiq Kamal 1996-cı ildən Akademik Milli Dram Teatrının artist heyətinə qəbul olunub və bu teatrın səhnəsində Eynşteyn ("Ah, Paris…Paris!..", Elçin), 2-ci Tiqran ("Pompeyin Qafqaza yürüşü", N. Həsənzadə), Ədhəm Tağıyev ("Dəlilər və ağıllılar", İ.Əfəndiyev), Ədəbi işçi ("Mənim sevimli dəlim", Elçin), Dost ("Mənim ərim dəlidir", Elçin), Vəzir Mirzə Həbib ("Lənkəran xanının vəziri", M.F.Axundov), Xəlil ("Poçt şöbəsində xəyal", Elçin), Kamran Qızılsəs ("Köhnə ev", Ə.Əmirli), Qulaməli ("Bu dünyanın adamları", Hidayət), Gülməyən Adam ("Hərənin öz payı", X.Qoca), Şeyx Əhməd ("Ölülər", C.Məmmədquluzadə), Şahzadə ("Xurşidbanu Nətavan", İ.Əfəndiyev), General ("Generalın son əmri", V.Səmədoğlu), Əmirqulu ("Yaşar", C.Cabbarlı) kimi rolları canlandırıb.

Aktyor eləcə də "Qız atası", "Anamın kitabı", "Duel", "Yurd yeri" teletamaşalarında oynayıb. Bəzən bir jesti, bir sözü, eyhamı ilə zalda xoş ovqat yaradıb. 20-dən artıq filmdə çəkilməsi isə onun həm də ekran ustası olduğunu göstərir.

Sənətçi mətnə kolorit gətirən əlavələri barədə deyir: "Mən mətnə çox əlavələr edirəm. Amma məntiqli əlavələr edirəm. Aktyorun obraza qatdığı şirinliyi heç bir dramaturq, ssenarist qata bilməz. İxtisar da edirəm. Artıq, fikri yayındıran xətləri ixtisar edirəm". Rejissorlar onun yüksək zövqünə inanırlar deyə, əlavələrinə "göz yumurlar".

İndi yay tətili olduğu üçün, Cəfər Namiq Kamal 75 illik yubileyini bir qədər əvvəl səhnədə qeyd edib. Həmin gün Akademik Milli Dram Teatrında "Müfəttiş" tamaşası premyerası benefis kimi keçirilib. Tamaşadan sonrakı çıxışlarda Anton Antonoviç Skvoznik rolunu oynayan yubilyarın haqqında xoş sözlər söylənib. Ona Akademik Milli Dram Teatrının "Milli Teatr Mükafatı" və Teatr Xadimləri İttifaqının "Teatr xadimi" qızıl medalı təqdim olunub.

Daha sonra Mədəniyyət Nazirliyi və Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Cəfər Namiq Kamala həsr edilmiş "Maşallah, 75 də gəldi" adlı yubiley tədbiri də keçirilib və yaddaqalan olub. Xalq artistləri Hacı İsmayılov, İlham Namiq Kamal, Mərahim Fərzəlibəyov, Əməkdar incəsənət xadimləri Məryəm Əlizadə, İlham Rəhimli, teatrşünas Çingiz Ələsgərli, telejurnalist-dramaturq Ülviyyə Heydərova və başqaları Cəfər Namiq Kamalın yaradıcılıq yolundan, teatr səhnəsində yaratdığı obrazlardan, xarakterindəki çoxsaylı müsbət keyfiyyətlərdən danışıblar. Çıxışlararası sənətkarın həyat və yaradıcılığını əks etdirən videogörüntülər nümayiş olunub.

Tanınmış aktyor 2013-cü ildə Xalq artisti fəxri adına layiq görülüb. Eyni zamanda Prezident mükafatçısı və fərdi təqaüdçüdür.

***Ə.DOSTƏLİ***
***XQ***

# Görkəmli ədib əbədiyyətə qovuşdu

**Azərbaycanın görkəmli yazıçısı, Əməkdar incəsənət xadimi, "Şərəf" ordenli, Prezidentin fərdi təqaüdçüsü, Vidadi Yusif oğlu Babanlı dünən ömrünün 98-ci ilində əbədiyyətə qovuşub. Bir sıra populyar nəsr əsərlərinin, ictimai məzmunlu silsilə şeirlərin və sənədli əsərlərin müəllifi, dünya ədəbiyyatından qiymətli nümunələri ana dilimizə çevirmiş ustad qələm sahibi XX əsr və müstəqillik dövrü ədəbiyyatımızda və publisistikamızda özünəməxsus silinməz izlər qoyub.**



Vidadi Babanlı 1927-ci il yanvarın 5-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub. 1944–1949-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində, sonra Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. O, gənclik illərində qısa müddət kənddə müəllim işləyib. Fəal ədəbi-publisistik yaradıcılıq mühitinə qayıdan Vidadı Babanlı "Azərbaycan müəllimi" qəzeti, "Ədəbiyyat qəzeti" redaksiyalarında ədəbi işçi, şöbə müdiri vəzifələrində çalışıb. O, sonrakı illərdə "Azərbaycan" jurnalı redaksiyasında nəsr, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbələrinə rəhbərlik edib, "Yazıçı" nəşriyyatında baş redaktor müavini olub.

Ədəbi aləmə şeirlə gələn Vidadı Babanlının ilk qələm təcrübəsi "Anam sən oldun" 1947-ci ildə "Azərbaycan gəncləri" qəzetində işıq üzü görüb. Gənclik dövründə yazdığı şeirləri, "Dönüş", "Təbrizdə bir gecə" poemaları dövri mətbuatda "Vidadi Şıxlı" təxəllüsü ilə çap olunub. Nəsr yaradıcılığına "Gəlin" povesti ilə başlayan yazıçının "Vicdan susanda", "Həyat bizi sınayır", "Müqəddəs ocaq" kimi romanları, "Ana intiqamı" povesti, hekayələri ona ölkəmizdə və xaricdə geniş populyarlıq qazandırıb, dəfələrlə nəşr olunub.

Kinossenarilər və aktual mövzulu publisitik yazılar Vidadi Babanlının yaracılığına əlavə zənginlik gətirib. "Öz evində qonaq" pyesi isə ədibi tamaşaçılara problemləri cəsarətlə səhnəyə gətirən pyes müəllifi kimi tanıdıb. Onun ahıllıq dövrünun yaradıcılıq məhsulu olan "Kişilik haqqında himn" şeirlər , "Dərd məni dilləndirir" publisistik topluları, "Mənim gizlinlərim" avtobioqrafik romanı ədəbi mühitdə böyük maraqla qarşılanıb.

Vidadi Bbanlının 8 onillik davam etdiş məhsuldar yaradıcılığı xalqının sevinc və kədərinin, arzu və uğurlarının əhatəli bədii, sənədli salnaməsini təşkil edir. Xalqını sonsuz məhəbbətlə sevən, özü də milyonların sayğı-rəğbətini qaranan görkəmli söz ustası ömrünün sonunadək milli ədəbiyyatımıza, ictimai düşüncəmizə ləyaqətlə və yorulmadan xidmət etdi. Bidadi Babanlının ölməz xatirəsi xalqımızın əbədiyaşarlıq xəzinəsinə köçdü.

**Allah rəhmət eləsin!**

***"Xalq qəzeti"nin kollektivi***

*Bəxtiyar Vahabzadə – 100*

# Şəkidə Bəxtiyar ocağı

**Türk dünyasının dahi şairi Bəxtiyar Vahabzadə Azərbaycanın qədim şəhərlərindən biri olan Şəkinin tarixi mərkəzində - "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu ərazisində anadan olub. Ömrünün ilk uşaqlıq illərini Şəkidə keçirdikdən sonra 9 yaşında ailəsi ilə birlikdə Bakıya köçən Vahabzadə sonralar yazdığı "Ata yurdu" adlı şeirində həmin evi belə təsvir edib:**

***Şəkidə məhlə var nə qədər desən,***
***Gəldim bu dünyaya "Yuxarı baş"da.***
***Bir göz evimizdə nə desən vardı,***
***Taxça aşağıda, buxarı başda.***



B.Vahabzadənin anadan olduğu ev Şəki şəhəri, 1-ci rayon, Ə.Haqverdiyev küçəsində yerləşir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 noyabr 2021-ci il tarixli, 338 nömrəli qərarı ilə yerli əhəmiyyətli abidə statusu (inv№ 4996-30) almış ev Şəkinin ənənəvi xalq memarlığı üslubunda inşa edilib. Çay daşı və kərpic kombinasiyası ilə tikilmiş evin damı kirəmitlə örtülüb. Dahi şair hələ 1948-ci ildə həmin evi uşaq bağçasına bağışlamışdı. Onun 90 illiyi münasibətilə Azərbaycan Prezidenti "Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında" 27 oktyabr 2015-ci il tarixində sərəncam imzalayıb. Bu məqsədlə uşaq bağçası üçün evin yaxınlığında yeni bir bina tikilib və şairin ata yurdunda onun xatirə muzeyi yaradılıb.



2018-ci ilin avqustunda fəaliyyətə başlamış muzey 3 ekspozisiya zalından ibarətdir. Bu muzeydə Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını əks etdirən 700-dən çox eksponat – şəxsi əşyalar, sənədlər, kitablar, əlyazmaları və fotolar, xatirə hədiyyələri sərgilənir. Eyni zamanda, şairin doğulduğu ev yerli əhəmiyyətli abidə kimi də ziyarətçilərin diqqətini cəlb edir. Çünki bu evdə dahi bir şəxsiyyətin milli kimlik, azadlıq ideallarının ilk rüşeymləri formalaşıb. "Gülüstan" poemasını yazmaq üçün ona ilham verən vətənpərvərlik, mübarizlik ruhu bu evdən pərvazlanıb.

Vətənpərvər şair Bəxtiyar Vahabzadə üçün Vətən məhz "Yuxarı Baş"dakı bu evdən, kiçik bir həyətdən başlayıb. Doğulduğu ev, həyətdəki ağaclar, bu məhəllə, ətraf mənzərə, Şəki şəhəri, onun tarixi və yetirdiyi böyük şəxsiyyətlər poeziyamızın Bəxtiyarına ilham verib, ona dərin düşünməyi, ürəkdən duymağı öyrədib. Nəticədə Şəkidən başlanğıcını götürən Bəxtiyar Vahabzadə yaradıcılığının böyük ideyaları –vətənpərvərlik, insanlıq, milli kimlik, dil, din, fəlsəfə sərhədləri aşaraq, bütöv Azərbaycanın, ümumi Türk dünyasının düşüncəsinə, amalına çevrilib. Türk telekanallarından birinə müsahibəsində böyük şair özü də bunu etiraf edib:

"Şəki deyəndə atamın, babamın siması gəlir gözümün qabağına. Dünyanı birinci dəfə orda anlamağa başlamışam. O qoxular gəlir burnuma, güllərin-çiçəklərin ətrini hiss edirəm...".

Bu gün muzey Xalq şairi Bəxtiyar Vahabzadə irsinin dərindən öyrənilməsini həyata keçirən, aidiyyatı materialları toplayan, qoruyan, elmi cəhətdən araşdırılmasını təşkil edən mədəniyyət, elmi-tədqiqat müəssisəsidir. Onu da xatırladaq ki, Şəki şəhərindəki 1 nömrəli tam orta məktəbə və küçələrdən birinə Bəxtiyar Vahabzadənin adı verilib, şəhərin mərkəzində yerləşən parkda onun büstü qoyulub.

***Zəminə RƏSULOVA,***
***Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

# Filarmoniya öz maestrosunu unutmur

**Avqustun 20-də Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə M. Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Yay zalı"nda görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti maestro Niyazinin doğum gününə həsr olunmuş konsert keçiriləcək.**

Bu barədə mətbuata Mədəniyyət Nazirliyindən məlumat verilib. Bildirilib ki, konsertdə Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu altında Niyazi adına Dövlət Simfonik Orkestri və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dəstəyi ilə Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Vasif Adıgözəlovun, Asəf Zeynallının və maestro Niyazinin seçilmiş əsərləri ifa olunacaq.

Mərasim Niyazinin zəngin yaradıcılıq irsini gənc nəslə tanıtmaq və sənətinə ehtiram ifadə etmək məqsədi daşıyır.



Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 172 (30866) 17 avqust 2025-ci il, bazar

İDMAN

## Voleybol millimiz Bakıda da uduzdu

**Dünən kişi voleybolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində növbəti oyununa çıxıb.**



Fərid Cəlalovun baş məşqçisi olduğu kollektiv Bakıda Avstriya seçməsini qəbul edib. Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində keçirilən qarşılaşma 3:0 hesabı ilə qonaqların xeyrinə başa çatıb.

Qeyd edək ki, Azərbaycan yığması rəqiblə səfərdə keçirdiyi oyunda da 0:3 hesabı ilə uduzub.

## "Turan Tovuz" qalib gəldi

**Misli Premyer Liqasının I turunda "Turan Tovuz" "İmişli"nin qonağı olub. Şamaxı şəhər stadionunda baş tutan oyun ölkəmizin Qərb regionu təmsilçisinin minimal hesablı qələbəsi ilə yekunlaşıb–1:0.**



Dünən keçirilən günün ikinci matçında "Neftçi" paytaxtda "Şamaxı"nı qəbul edib. "Neftçi Arenada" baş tutan oyunda 1:1 hesablı nətəcə qeydə alınıb.

Qeyd edək ki, avqustun 15-də "Karvan-Yevlax" və "Qəbələ" komandaları arasında keçirilmiş açılış oyununda bərabərlik qeydə alınıb – 1:1. Turun digər qarşılaşmaları bu gün və avqustun 19-da keçiriləcək. Avqustun 17-nə təyin edilmiş "Sabah" – "Qarabağ" görüşü isə təxirə salınıb.

## Məhəmməd Salah 187 qolla 4-cüdür

**İngiltərənin "Liverpul" klubunun hücumçusu Məhəmməd Salah Premyer Liqa tarixinin bombardirləri siyahısında dördüncü pilləyə yüksəlib.**



33 yaşlı misirli buna komandasının doğma meydanda "Bonrmut"a qarşı keçirdiyi oyunda (4:2) vurduğu qolla nail olub.

Premyer Liqada 187-ci qolunu vuran Salah bu göstərici ilə Endi Kola çatıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təbiət abidələrimiz*

# Dağlar gözəli – ağ duvaqlı Afurca şəlaləsi

**Yayın isti, qızmar günlərində adamın yadına ən çox sərin yerlər – dağlar, meşələr, oradakı bulaqlar, bir də ki, şəlalələr düşür. Kimsə öz xəyalında yaxın-uzaq ölkələrdəki böyük, gur sulu şəlalələri canlandırmağa cəhd etməsin. Azərbyacanımızın bir çox dağ və dağətəyi ərazilərində elə gözəl şəlalərimiz var ki, onların hər birini görmək hər kəsə xoş əhval gətirir.**





Şəlalələr yayda insanlara təkcə sərinlik bəxş etmir, həm də qəlblərdə şirin duyğular oyadır. Dilimizdə, şeirimizdə, mahnılarımızda şəlalələrimiz böyük sevgi ilə vəsf olunur. Nəğməkar şairlərimizdən Hafiz Baxışın şeirinə yazılmış məşhur mahnıdan, 2 misranı xatırlamaq belə kifayətdir:

***Coşqun çaylar nəğmə deyən dilindir,***
***Şəlalələr ağ duvaqlı gəlindir.***

Necə də gözəl deyib, şair! Aşıq gördüyün çağırar. Mənim əslim, nəslim Qubadan olduğu üçün buradakı məşhur Afurca şəlaləsindən söz açamaq istəyirəm. Şimal bölgəsinə səfər edən yerli və əcnəbi turistlərin çoxu dağlar gözəli Afurca şəlaləsini görməyə can atır.

Adını yerləşdiyi eyni adlı kənddən alan Afurca şəlaləsi, həqiqətən, ölkəmizin gözəl təbii təbiət abidələrindəndir. Təxminən, 75 metr hündürlükdən axan şəlalənin suları qranit qayaya çırpılaraq ətrafa səpələnir. Afurca şəlaləsi elə bu yerlərin "ağ duvaqlı gəlinləri" kimi abırlı, ismətlidir. Onun göz yaşları kimi dumduru damcılarının altında durmağın ayrı bir ləzzəti var. Amma su soyuq olduğu üçün hər kəs buna ürək eləmir.

Qeyd etmək lazımdır ki, Afurca kəndi rayon mərkəzinin 36 kilometrliyində, dəniz səviyyəsindən 1200 metr hündürlükdə yerləşir. Qubadan Qonaqkənd istiqamətində hərəkət edərkən Təngəaltı dərəsinə çatandan sonra şəlalənin gözəlliyinə tamaşa etmək üçün bir neçə yüz metr dağ yolu ilə yuxarı qalxmalı olursan.

Bəzi turistlər bu yolu atlarla, bəziləri isə "cip" maşınlarla qalxırlar. Yerli gənclər isə atları və maşınları ilə hər an turistlərin xidmətdindədirlər. İnsafən, zəhmət haqqı da elə yüksək deyil.

Yaxın-uzaq yolları aşıb Afurcaya gəlməyə dəyər. Təsadüfi deyil ki, yay turizminin qızğın çağında bu əsrarəngiz yerləri axın-axın insan ziyarət edir. Qonaqlar şəlaləyə heyranlıqla baxmaqdan doymurlar. Çoxları bir qayda olaraq burada xatirə fotoları da çəkdirirlər.

Yeri gəlmişkən, şəlalənin yerləşdiyi ərazi ekoloji baxımdan çox təmiz və zəngindir. Burada müxtəlif nadir bitki və heyvan növləri yayılıb. Yay aylarında paytaxtdan, eləcə də digər şəhər və bölgələrdən gələn bəzi ailələr yaxınlıqdakı Afurca və Təngəaltı kəndlərində kirayə evlər tutub dincəlirlər. Son illər ərazidə turizm obyektləri də artıb. Çoxları buradakı xidmətin səviyyəsindən razılıq edirlər. Təbii ki, xidmət haqqlarının baha olduğunu dilə gətirərək narazı qalanlar da olur.

Afurca şəlaləsi rəssam və fotoqraflar üçün də əvəzsiz bir məkandır. Son dəfə bura gələndə köhnə tanışım, kəndin yetirməsi, tanınmış fotojurnalist Bayram Afurcalını da turistlərin arasında gördüm. Durmadan fotoaparatın düyməsini sıxır, bu yerlərin saf havasını və suyunu elə hey tərifləyərək qonaqların xoş dəqiqələrini fotolara həkk edirdi.

Turistlərdən biri dedi ki, bu yerlərin ən böyük sərvəti təkcə gözəl təbiəti deyil, elə Bayram Afurcalı kimi, saf, təmiz qəlbli insanlarıdır. Bayram müəllim bu sözlərin cavabında sadəcə, gülümsədi. Döşünə yatmışdı kəndinin tərifinə bərabər tutulması...

Şəlalədən ayrılanda tanış bir şairin vaxtilə yazdığı "Dağlar" şeirinin son misraları qulağımda nəğmə kimi səslənirdi:

**Şəlaləsi saz kimidir,**
**Dədəm Qorquddu dağlar!**

*M.HACIXANLI*
*XQ*

# Gəncədə Qobustanın sirrini açan alim anıldı

**AMEA-nın Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutu görkəmli alim, əməkdar elm xadimi, arxeoloq və etnoqraf İshaq Cəfərzadənin anadan olmasının 130 illiyinə həsr olunmuş dəyirmi masa təşkil edib.**






Açılış nitqində AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev alimin Azərbaycan arxeologiya elminin inkişafında oynadığı mühüm roldan danışıb. O, İshaq Cəfərzadənin Gəncədə böyüyərək, qədim şəhərin elmi mühitindən ilhamlandığını və ölkənin bir çox bölgəsində arxeoloji tədqiqatlar apardığını qeyd edib.

Dəyirmi masada Diyarşünaslıq İnstitutunun əməkdaşları məruzələrlə çıxış ediblər. Tarix üzrə fəlsəfə doktoru, dosent Nərgiz Rəsulova alimin geniş elmi irsindən, Azərbaycanın müxtəlif bölgələrindəki ekspedisiyalarından bəhs edib. Dosent Samirə Qasımova isə 1938–1940-cı illərdə Gəncədə aparılan arxeoloji qazıntıların nəticələrinə toxunaraq, qədim şəhərin maddi mədəniyyətinə işıq salan tapıntılardan danışıb. "Qobustanın sirrini açan alim" mövzusunda çıxış edən tədqiqatçı Yasin Alməmmədov İshaq Cəfərzadənin bu unikal qayaüstü təsvirlərə dair 20 ildən artıq davam edən sistemli araşdırmalarının əhəmiyyətini vurğulayıb. Digər çıxışçılar – Nərmin Alıyeva və Nüşabə Abbasova isə alimin elmi fəaliyyətinin coğrafiyası, ailə həyatı və arxeoloji irsi haqqında maraqlı məlumatlar veriblər.

Tədbirin sonunda iştirakçılar alimin irsi ətrafında fikir mübadiləsi aparıblar.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri,*
**Gəncə**

## Asteroid Yer kürəsinin yanından keçəcək

**Ölçüsü təqribən 50 metr olan 2025 PM asteroidi avqustun 17-də Bakı vaxtı ilə saat 11:03-də Yerdən təqribən bir Ay orbiti diametrli məsafədən keçəcək. Bu barədə Kosmik Tədqiqatlar İnstitutunun Günəş astronomiya laboratoriyası və Rusiya Elmlər Akademiyasının Günəş-Yer Fizikası İnstitutu məlumat yayıb.**



2025 PM avqustun 1-də kəşf edilib və Apollon qrupuna – orbitləri Yerlə kənardan kəsişən Yerə yaxın asteroidlərə aiddir. Alimlərin fikrincə, bu, çox güman ki, uçucu maddələri olmayan qayadır.

"Planetə qeyri-adi şəkildə yaxınlaşdığına görə, göy cismi təhlükəli asteroidlər sırasına daxildir. Ümumiyyətlə, bu kateqoriyaya Yerə Ay orbitinin 10 diametrindən yaxın məsafədə yaxınlaşan cisimlər daxildir", – hesabatda deyilir.

Qeyd edilir ki, asteroidin Yer tərəfindən tutulma ehtimalı son dərəcə aşağıdır; bu ancaq onun başqa bir göy cismi ilə gözlənilməz toqquşması nəticəsində baş verə bilər.

*Q.ƏLİYEV*
*XQ*

*HAVA*

## Paytaxtda əsasən yağmursuz, bölgələrdə arabir yağış...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Lakin 16-dan 17-nə keçən gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**



Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 21-24 dərəcə isti, gündüz 27-31 dərəcə isti, atmosfer təzyiqi 761 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək.

Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-23 dərəcə isti, gündüz 28-33 dərəcə isti, dağlarda gecə 13-18 dərəcə isti, gündüz.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3431
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00